QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

20 sentyabr: "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?" deyənlərə CAVAB

8

"Dostluğumuza böyük önəm verirəm"

2

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib

№ 169 (7337)

18 sentyabr 2025-ci il.
Qiyməti 60 qəpik

Zəngəzur Dəhlizi - Avrasiyaya geosiyasi çağırış



4

Ərzaq bazarında necə bolluq və ucuzluq yaratmaq olar?

13

Məktəblərdə telefon QADAĞASI: nələr DƏYİŞƏCƏK?

16

Neft sülhün açarıdırmı?

10

Ey ədəb, sən nə gözəl imişsən...

6

Layladır, sevgidir, məlhəmdir, Zəfərdir, Azərbaycan musiqisi...



4

“Dostluğumuza böyük önəm verirəm”

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidenti Donald Trampa təşəkkür edib

Prezident İlham Əliyev ABŞ Prezidenti Donald Trampa ”Truth” sosial şəbəkə hesabında paylaşımına görə təşəkkür edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı bu barədə X sosial şəbəkə hesabında yazıb. ”Prezident Donald Tramp, təşəkkür edirəm, ”Truth” sosial hesabınızda paylaşdığınız xoş sözlərinizə görə minnətdaram. Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsində və tarixi Vaşinqton sammitinə ev sahibliyi etməyinizdə oynadığınız mühüm rolu yüksək qiymətləndirirəm”, - deyə Prezident İlham Əliyev qeyd edib.

Dövlətimizin başçısı vurğulayıb ki, Donald Tramp Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında əbədi dostluğun və formalaşmaqda olan strateji tərəfdaşlığın memarıdır. ”Dostluğumuza böyük önəm verirəm”, - deyə Azərbaycan Prezidenti əlavə edib.

Azərbaycan uğurları ilə böyük qələbələrə imza atır!

Bu bir gerçəklikdir ki, Azərbaycan bütün sahələrdə böyük uğurlara, nailiyyətlərə imza atır. Xüsusilə də işğaldan azad edilən ərazilərdə qısa müddətdə aparılan genişmiqyaslı quruculuq-abadlıq, təmir, tikinti işləri bir sıra dövlətləri heyran edib. Heç bir ölkə erməni vandalizminin qurabanı olmuş əraziləri, dağıdılmış, viran edilmiş yurd yerlərini öz daxili imkanları hesabına həllinə nail ola bilməzdi. Daima onun şahidi olmuşuq ki, hansısa ölkə təbii fəlakətlər nəticəsində dağıntılara, yanğınlara məruz qalan zaman başqa dövlətlərə, eləcə də BMT-yə kömək üçün müraciət edir. Əksər hallarda müraciətlərə müsbət cavab verilir. Azərbaycan çoxsaylı dövlətlərə müxtəlif formalarda humanitar köməkliklər göstərib, təbii fəlakətlərin aradan qaldırılmasında yardımçı olub. Lakin erməni vəhşiliyinin nəticəsi olaraq Qarabağımız və ətraf ərazilərimiz fəlakətli dağıntılara məruz qaldığı halda heç bir ölkə bizə köməklik təklif etmədi. Ən azı humanitar dəstəyini göstərmədi. Düzdür, bunu türkdilli qardaş ölkələrə şamil etmək olmaz. Onlar öz qardaşlıq yardımlarını qismən də olsa təklif etdilər və hazırda işğaldan azad edilən ərazilərimizdə bir sıra işlərin həyata keçirilməsində iştirak edirlər. Söhbət ABŞ-dan, Avropa dövlətlərindən gedəndə onlar bu məsələdə heç bir rola malik deyillər. Yəni ermənilərin Azərbaycan ərazilərində törətdikləri dağıntıların aradan qaldırılmasında iştirak etmirlər. Zatən onların köməyinə də ehtiyacımız yoxdur. Dövlət və xalq olaraq üzləşdiyimiz erməni vəhşiliklərinin aradan qaldırılmasında öz gücümüzə və imkanlarımıza arxalanırıq. Necə ki, 30 illik erməni işğalını öz gücümüzlə həll etməklə, BMT qətnamələrinin icrasını həyata keçirdik, eləcə də dağılmış, viran edilmiş ərazilərimizi də özümüz tikir, qurur və yaradırıq. Bununla Azərbaycanın hər bir problemi, çətinliyi aradan qaldırmaq gücünə və qüdrətinə malik dövlət olduğunu nümayiş etdirir.

Yeni və davamlı iqtisadi uğurlar

Prezident İlham Əliyevin yeni iqtisadi kursuna, bütünlüklə, strateji istiqamət verən ilk Proqram normativ-hüquqi aktı 2004-cü ilin fevralında ”Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər)” qəbul edilməsi oldu. Azərbaycanda yoxsulluğun səviyyəsinin azaldılması üçün Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə yoxsulluğun real səviyyəsinin müəyyənləşdirilməsi məqsədilə ailə təsərrüfatları sahiblərinin illik anketləşdirilməsi tətbiq olundu. Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və sosial-iqtisadi inkişaf üzrə 2 Dövlət Proqramı (2003-2005-ci və 2008-2015-ci illər üçün) qəbul edildi. Bunun nəticəsində son 20 il ərzində yoxsulluğun səviyyəsi, təxminən, 44,7 faizdən 5,2 faizədək azalıb. Artıq 2005-ci ildə Prezidentin apardığı unikal iqtisadi stra-tegiya və Azərbaycan cəmiyyətinin həyatının bütün sahələrinin modernləşdirilməsi kursu sayəsində ölkə iqtisadiyyatı fenomenal inkişaf tempi - ÜDM-in 26,4 faiz artımını nümayiş etdirdi. 2006-cı ilin yekunlarına görə isə ÜDM 34,5 faiz artıb. Bu gün 2003-cü illə müqayisədə real ÜDM-in həcmi 3,6 dəfə, nominal isə 17,2 dəfə artıb.

Cənab İlham Əliyev dövlət başçısı seçildikdən dərhal sonra bütün regionların inkişafını strateji məqsəd kimi müəyyənləşdirdi. Belə ki, onun tərəfindən təsdiqlənən ümummilli əhəmiyyətli sistemli proqramlardan birincisi 2004-cü ilin fevralında start verilən ”Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı” oldu. Prezidentin ötən illər ərzində Azərbaycan Respublikasının re-gionlarının sosial-iqtisadi inkişafı üzrə dörd Dövlət Proqramı (2004-2008-ci, 2009-2013-cü, 2014-2018-ci, 2019-2023-cü illər) qəbul olunub. Bu proqramlar çərçivəsində 100 milyard manatdan çox investisiya yatırılıb. Həmin proqramlar şəhərlərin, qəsəbələrin və kəndlərin simasını kökündən dəyişib, regionların potensialının artırılması, infrastrukturun, kommunal xidmətlərin, investisiya və biznes mühitinin yaxşılaşdırılması, eləcə də əhalinin rifahının yüksəldilməsi üçün imkanlar açıb.

İşğaldan azad edilən ərazilər cənnətə çevrilir

Ermənistan terrorçu dəstələrinin viran qoyduğu işğaldan azad edilən ərazilərimizdə böyük quruculuq, təmir, bərpa, tikinti işləri həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyevin 24 noyabr 2020-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılıb. Quruculuq-abadlıq işlərinin sürətləndirilməsi ilə əhalinin yurd yerlərinə qatyıdışı təmin olunur. Artıq 50 minə yaxın insan öz dogma yurdlarına qayıdıblar. 2025-ci ildə işğaldan azad edilmiş torpaqlarda geniş bərpa-quruculuq işlərinin aparılmasına 4 milyard manat məbləğində vəsait ayrılıb. Ümimilikdə bu günə qədər dövlət büdcəsindən işğaldan azad edilmiş ərazilərdə bərpa-quruculuq məqsədləri üçün 21,5 mlrd. manata yaxın vəsait ayrılıb.

Böyük Qayıdış Proqramının birinci mərhələsində 140 min keçmiş məcburi köçkünün öz dogma el-obasına qayıtması təmin olunacaq. 2022-ci ilin iyulunda Zəngilan rayonunun Ağalı kəndinə başlanan qayıdış hazırda beş şəhərin - Füzuli, Laçın, Şuşa, Xocalı və Cəbrayılın, 4 kəndin - Ağalı, Talış, Zabux və Susun sakinlərinə qovuşması ilə davam edir. Hazırda bu istiqamətdə görülən işlərin miqyası tezliklə bu sırada yeni ünvanların yer alacağına böyük əminlik yaradır.

Dövlət Proqramına əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi planlaşdırılır. İşğaldan azad edilmiş 8 şəhərin Baş planı hazırlanıb. İşğaldan azad olunmuş ərazilərdə bərpa və tikinti işlərində, dost xarici ölkələr fəal iştirak edir.

Artıq bu məqsədin reallığa çevrildiyi göz qabağındadır. Şuşa, Laçın, Füzuli, Xocalı, Cəbrayıl, Kəlbəcər şəhərləri ilə yanaşı 30 yaxın kəndlərimiz və qəsəbələrimiz də bərpa edilib. Prezident İlham Əliyevin Füzuli, Xocavənd, Xocalı rayonlarına və Xankəndi şəhərinə səfəri çərçivəsində Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin, həmçinin Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşü də bunun təsdiqidir. Artıq 5-ci ildir ki, Azərbaycan Qarabağ regionunun işğaldan azad olunmuş ərazilərində genişmiqyaslı dirçəliş proqramı həyata keçirir. Dağıdılmış kənd və şəhərlərin yerində qısa müddətdə ”Ağıllı kənd”lərin bünövrəsi qoyuldu, 2022-ci il isə azad edilmiş Zəngilanda salınmış ilk Ağalı ”Ağıllı kənd”inə qayıdışına başlanğıc ili oldu.

2022-ci il noyabrın 16-da ”Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edildi. 2021-2023-cü illərdə Qarabağ və Şərqi Zəngəzurda layihələrin həyata keçirilməsinə 7 milyard dollar ayrılıb, 2024-cü ildə dövlət büdcəsindən bu məqsədlər üçün minimum daha 2,4 milyard dollar vəsait yönəldiləcək. 2022-ci il iyulun 19-dan bu günədək 2 şəhərə (Laçın və Füzuli şəhərləri) və 3 kəndə (Zəngilan rayonunun Ağalı, Tərtər rayonunun Talış və Laçın rayonunun Zabux kəndləri) 4 min 516 keçmiş məcburi köçkün qayıdıb, bu, 1134 ailə deməkdir.

Dövlət Proqramına əsasən, ilkin mərhələdə 100 yaşayış məntəqəsinin (8 şəhər, 8 qəsəbə və 84 kənd) bərpa edilməsi planlaşdırılır. İşğaldan azad edilmiş 8 şəhərin Baş planı hazırlanıb. İşğaldan azad olunmuş ərazilərdə bərpa və tikinti işlərində, dost xarici ölkələr fəal iştirak edir. Torpaqların işğaldan azad edilməsindən keçən 3 il ərzində regionda genismiqyaslı abadlıq və tikinti işləri aparılıb. Azad olunmuş ərazilərdə bu günədək 115 min hektardan çox sahə minalardan və partlamamış sursatlardan təmizlənib.

Prezident İlham Əliyevin işğaldan azad edilən ərazilərə hər səfəri ümumxalq tədbirə çevrilir

Azərbaycan Prezidenti İlham Əliyevin mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzura səfərləri çərçivəsində bu torpaqlara qayıdan sakinlərlə görüşləri qürurverici məqamlardandır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsində Qırmızı Bazar, Hadrut qəsəbələrinin və Sos kəndinin sakinləri ilə görüşündə maraqlı və diqqətçəkən söhbətlər oldu. Prezident İlham Əliyev bildirdi ki, son beş ilin tarixi Zəfər tarixidir, şanlı tariximizdir və şadam ki, siz artıq öz doğma dədə-baba torpağınıza gəlmisiniz, yerləşmisiniz: ”Sizin üçün burada şərait yaradılıb, evlər tikilib, təmir edilib. Bütün şərait var - su, qaz, elektrik, istilik, məktəb, tibb məntəqəsi, yollar. Ən önəmlisi bura doğma Qarabağ diyarıdır. Gözəl mənzərəli yerlərdir, hər tərəf dağ, meşə, bulaq, su da boldur. Yəni, burada, sadəcə olaraq, rahat yaşamaq, qurub-yaratmaq, uşaqları böyütmək, onlara yaxşı tərbiyə vermək üçün bütün şərait var. Yəni, artıq Azərbaycan xalqı bundan sonra sülh içində yaşayacaq”.

Bəli, aparılan düzgün, məqsədyönlü iqtisadi siyasətin bəhrəsini bütün ölkə vətəndaşları görməkdədir. Həm də bu inkişafın uğurlarından işğaldan azad edilən ərazilərdə genişmiqyaslı quruculuq, abadlıq, tikinti, bərpa işlərinin aparılmasında istifadə olunur ki, bu da ölkə əhalisi tərəfindən məmnunluq yaradır.

İLHAM ƏLİYEV

Fərqli resurslarla seçkilərə gedənlər tanınır və KİMİN KİM OLDUĞU BƏLLİDİR

Ermənistanın siyasi meydanı seçkilər ərəfəsində yenidən ”qaynamağa” başlayıb və hadisələrin necə ”istiqamət götürdüyü” qətiyyən diqqətdən yayınmır. Həmin ölkənin Milli Məclisinə növbəti seçkilərə bir neçə ay qalıb və artıq müşahidə edilənlər müvafiq məntiqi nəticələr üçün kifayət edir. Hal-hazırda belə, yəni, indidən artıq hansı siyasi qüvvənin hansı kapitalla, hansı potensialla, hansı resurslarla seçkilərə qatılacağından əminliklə danışmaq olar. Amma məsələ burasındadır ki, seçicilərin onlardan hansı nəticə gözləyə biləcəyi sual altındadır. Çünki erməni cəmiyyəti özü də artıq kimin kim olduğunu yaxşı bilir...

Diqqətə çatdıraq ki, Ermənistanda qarşıdan gələn seçkilərin kifayət qədər ”maraqlı” olacağı gözlənilir. Ona görə ki, siyasi meydanın ”köhnə oyunçuları” ilə yanaşı, bəzilərinin, daha dəqiq desək, çox real şansları olduğunu zənn edən yeni qüvvələrin də iştirak üçün ”baryeri keçərək” müraciət edəcəyi də təkzib edilə bilməz. Bir sözlə, hələ bundan sonra kimlərin qatılacağı, yeni ”fiqurların” da ”peyda” olacağı elə erməni cəmiyyətinin özünə də bəllidir. Ən azından proqnozlar da kifayət qədər fərqlidir və haylar kimin kim olduğunu özləri belə daha dərindən tanımağa, bilməyə çalışırlar. Elə erməni cəmiyyətindəki xaos və qarışıqlıq da bu səbəbdən günü-gündən artmaqdadır...

Təbii ki, bir çox araşdırmalar, məsələn, sosial sorğular sayəsində başlanğıcda nə baş verdiyini, kimin və necə mövqe tutduğunu, yaxud tutacağını haylar özləri indidən müəyyən dərəcədə anlamağa çalışırlar. Artıq sosioloqlar ”işə” də başlayıblar. Beləliklə, məlum olduğu kimi, son zamanlar ”GALLUP” son sorğunun nəticələrini artıq dərc edib və dərc olunan nəticələr diqqəti xüsusilə cəlb edib. Diqqətə çatdıraq ki, bu sorğu zamanı vətəndaşlara məhz, ”bu bazar günü seçki keçirilsəydi, onlar hansı siyasi qüvvəyə səs verərdilər”, sualı verilib. Sorğunun nəticələrinə görə, respondentlərin 17,3%-i ”Vətəndaş Müqaviləsi” partiyasına, 13,4%-i Samvel Karapetyanın hələ yaranma mərhələsində olan partiyasına, 6,4%-i ”Ermənistan” blokuna, 3,8%-i ”Çiçəklənən Ermənistan” partiyasına, 3,4%-i ”Ermənistan Respublika Partiyasına” səs verəcəyini bildirib. Həmçinin hazırda sorğuda iştirak edən vətəndaşların 2,5%-i həbsdə olan Vardan Qukasyanın ”DOK” partiyasına, 1,1%-i Aram Sarkisyanın ”Anrapetutyun” partiyasına, 1,1%-i ”Daşnaksütyun” partiyasına səs verməyə hazır olduqlarını bildiriblər.

”Bu xəmir hələ çox su aparacaq”, zərb məsəlində deyildiyi kimi, hələ bundan sonra çoxlu sayda dəyişikliklər də, fərqli ssenarilər də gözləniləndir və ermənilər özləri də hesab edilər ki, seçkiyə qədər çox şey dəyişəcək. Bununla belə haylar iddia edirlər ki, bu gün əsas ”favoritlər” artıq müəyyənləşib və bu göz qabağındadır. İddia olunur ki, gələcəkdə Milli Assambleyada təmsil olunmaq şansı olan Nikol Paşinyan, Samvel Karapetyan, Robert Koçaryan, Qaqik Tsarukyan və Serj Sarkisyanın rəhbərlik etdiyi partiyalar və alyanslardır. Göstərilən faiz nisbətlərinin qorunub saxlanması və ya dəyişdirilməsi artıq bu qüvvələrin qarşıdakı aylarda ictimaiyyətə hansı təkliflər, hansı kadr və ideyalar təqdim edəcəyindən asılıdır. Haylar hesab edirlər ki, proseslərə laqeydlik göstərən müxalifətə də, etibar edilməyən iqtidara da, bu və ya digər şəkildə seçkiyə gedəcək cəmiyyətə də hansı şəkildə həll yolları təklif olunmasından çox şey asılıdır. Ona görə də nə qədər məyusluq hissi ilə belə olsa da, bütün qüvvələr başa düşürlər ki, nəticə naminə elektoratı özünə cəlb etmək, ona inamı yenidən oyatmaq üzərində işləmək ən vacib şərtdir. Müəyyən bir istisnalarla məhz yalnız Samvel Karapetyanın formalaşmaqda olan qüvvəsi və digər dördünün, demək olar ki, illərlə onlara səs verən loyal elektoratı var. Bu isə o deməkdir ki, həmin qüvvələr, məsələn, əvvəllər Paşinyana səs vermişlər Ermənistanın taleyində son dönüş nöqtələrinə görə bu dəfə mütləq şəkildə öz səslərini hakimiyyətdə olan partiyaya verməyəcəklər. Ona görə də qarşıdan gələn aylar haylar üçün, bütövlükdə erməni cəmiyyəti üçün, Ermənistan üçün ciddi sınaq hesab olunur.

Maraqlıdır ki, bəs, Ermənistandakı həmin bu sadalanan qüvvələr qarşıdan gələn seçkilərlə bağlı özləri nə fikirdədirlər? Yəni, görəsən, özləri hansı qənaətdədirlər? Bu məqamda diqqətə çatdırmaq yerinə düşərdi ki, son illər xüsusi fəallıq göstərməyən Çiçəklənən Ermənistan Partiyası hansı formatda iştirak edəcəyini hələ dəqiq açıqlamayıb, amma o, həmin partiyanın lideri Qaqik Tsarukyan müsahibələrinin birində bu ehtimalı qətiyyən inkar etməyib. ”Əgər 2026-cı il seçkilərində iştirak etmək qərarına gəlinsə, o, hamının səsinin eşidiləcəyi ”Ermənistanın təklifi” platforması ilə gedəcək”, deyə Tsarukyan bildirib və əslində, mövqeyini göstərmiş olub. Yəqin ki, məhz onun kimi digərləri də öz mövqelərini yaxın zamanda göstərməli olacaqlar və hər halda buna məcbur olduqlarını özləri daha yaxşı başa düşürlər...

Yeri gəlmişkən, nəzərə çatdıraq ki, Tsarukyan bəlkə də yeganə siyasi qüvvədir ki, bu illər ərzində regionlarda bütün ofislərini qoruyub saxlayıb və buna görə də seçiciləri ilə, vətəndaşlarla daim əlaqə yarada bilir. Digər partiyalar isə hazırda fəal şəkildə ofis axtarışı və insanları cəlb etməklə məşğuldurlar və bu baxımdan da bəlli olur ki, bu mənada Qaqik öz ”rəqiblərindən” bir neçə addım öndədir. Ona görə də ehtimal etmək olar ki, Tsarukyanın siyasi qüvvəsi qarşıdan gələn seçkilərə köhnə partiya kimi gedəcək.

Ermənistan Respublikaçılar Partiyasına gəlincə, son mətbuat konfransında sədr müavini Armen Aşotyan bildirib ki, seçkilər haqqında danışmaq hələ tezdir. O, belə bir fikir bildirsə də, son günlərdə məlum olduğuna görə, ilin sonuna qədər qurultay çağırılacağı və ola bilsin ki, öz qərarını açıqlayacağı barədə xəbərlər artıq erməni cəmiyyətində yayılıb. İkinci prezident olan Robert Koçaryanın rəhbərlik etdiyi ”Ermənistan” bloku ilə bağlı isə hələ ki, hansısa bir ”aydınlıq” yoxdur. Əvvəla ona görə ki, ”Daşnaksütyun”un blokda qalmaqda davam edib-etməyəcəyi barədə qərar belə məlum deyil. Digər tərəfdən onun seçkilərdə iştirak üçün ayrıca ərizə verib-verməyəcəyi də, bu dəfə hansı qüvvənin Köçəryanın əsas platforması olacağı da hələlik aydın görünmür. Yəni, demək olar ki, bir qədər müəmmalı sayılır.

Bir daha təkrarən diqqətə çatdıraq ki, sorğuların nəticələrinə əsasən açıqlanan rəqəmlərin reallığa nə qədər yaxın olduğunu söyləmək hələ tezdir və elə erməni cəmiyyəti də belə hesab edir. Bununla belə, bəli, ”əsas aktyorların” kimlər olduğu və ya olacağı da artıq çoxdan bilinir. Ən azından elə erməni cəmiyyəti başda olmaqla, bütün dünya ictimaiyyəti belə kimin kim olduğunu yaxşı bilir. Sadalanılan qüvvələrin də, onların liderlərinin də ”kim olduğu” çoxdan bəllidir. Hər halda, illərlə hakimiyyət kürsüsündə oturaraq, yalnız uyğusuz siyasət yürüdənləri tanımaq üçün həmin illər kifayət edib və bu gün həqiqətən də, hansı manipulyasiyalar etməsindən, hansı şəkildə özünü ”fərqli formalara salmasından”, eləcə də hansı resurslarla seçkilərə getməsindən asılı olmayaraq, kimin kim olduğunu hamı yaxşı bilir və hər kəs yaxşı tanınır...

İnam Hacıyev

Zəngəzur Dəhlizi - Avrasiyaya geosiyasi çağırış

Bu günə qədər sakit region hesab edilən, aktiv müharibələrin baş vermədiyi Mərkəzi Asiyada dünya güclərinin maraqları kəsişməyə, hətta toqquşmaya başlayıb. Rusiya ilə İranın beynəlxalq marşrutlardan kənarda qalması Orta Dəhlizin Şərq seqmentində qalan Mərkəzi Asiya dövlətlərini, bu ölkələrin təbii sərvətlərini gündəmə gətirib. İran və Rusiya əvvəlki dövrə qayıtmaq üçün yollar aradığı bir vaxtda bütün imkanlarını səfərbər edir, hətta Qlobal Qərblə Qlobal Şərqi bir birinə bağlayan Orta Dəhlizdəki bütün ölkələrə zor tətbiqini də sınaqdan çıxarır. Amma ABŞ-ın çətiri altındakı Qərb də sakit durmur, Avropa İttifaqının ayrı-ayrı rəsmilərinin, o cümlədən Avropanın ayrı-ayrı ölkələrinin Mərkəzi Asiya ölkələrinə səfərləri, imzalanan sənədlər onu göstərir ki, münasibətlər təkcə iqtisadi yanaşmalarla məhdudlaşmayacaq, müharibə, toqquşma, qarşıdurma da qaçılmaz olacaq.

Geosiyasi mənzərənin qlobal transformasiyası fonunda Amerikanın Cənubi və Mərkəzi Asiya regionunda xarici siyasəti dramatik dəyişikliklərə məruz qalır. Hind-Amerika strateji tərəfdaşlığına ənənəvi diqqət Yeni Dehli və İslamabad arasında balansı ehtiva edən daha praqmatik yanaşma ilə əvəz olunur. Bu barədə Asia Today xəbər agentliyi məlumat yayıb. Bu paradiqma dəyişikliyi artan böyük güc rəqabəti və Mərkəzi Asiyada təhlükəsizlik arxitekturasını kökündən dəyişdirə biləcək yeni nəqliyyat dəhlizlərinin formalaşması fonunda baş verir.

Vaşinqtona görə, Hindistan və Pakistan arasında daha normal münasibətlər indi regional məqsədlərinə çatmaq üçün zəruridir və bu, bir tərəfə həddindən artıq dəstəyin bölgədə strateji təsirin itirilməsinə səbəb ola biləcəyini anladığını əks etdirir. Amerikalı ekspertlər vurğulayırlar ki, Birləşmiş Ştatlar İslamabadın hesabına Dehliyə həddsiz üstünlük verirsə, bu, təsir rıçaqlarını itirmək riski ilə üzləşir. Xüsusi əhəmiyyət kəsb edən faktdır ki, 2025-ci ilin may ayında Pakistan ABŞ prezidenti Donald Trampla yaxın əlaqələri olan iki lobbi firmasını işə götürdü: Trampın keçmiş mühafizəçisi Keyt Şiller və Trump Təşkilatının keçmiş uyğunluq direktoru Corc Sorial. Bu, İslamabadın ABŞ-ın yeni administrasiyası ilə münasibətləri gücləndirməkdə ciddi niyyətlərini nümayiş etdirir və regionda ənənəvi ittifaqlara yenidən baxılması üçün katalizator ola bilər.

TRIPP dəhlizi Amerika təsirinin yeni aləti kimi

Zəngəzur dəhlizinin adının TRIPP (Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu) adlandırılması sadəcə simvolik jest deyil, Avropa və Asiya arasında əsas nəqliyyat qovşağında Amerikanın iştirakını gücləndirməyə yönəlmiş strateji addımdır. Trampın bəyanatına görə, Azərbaycanı Ermənistan ərazisi ilə Naxçıvanla birləşdirən Zəngəzur dəhlizi 99 il müddətinə "Sülh və Rifah üçün Tramp Route" adı ilə ABŞ administrasiyasına verilib.

Ermənistanın Zəngəzur (Sünik) vilayətindən keçən bu 43 kilometrlik yol regionun yeni geosiyasi arxitekturasının mühüm elementinə çevrilir. Zəngəzur dəhlizi yeni enerji və nəqliyyat-logistika marşrutlarına yol açır və ən əsası Azərbaycan və Türkiyə arasında birbaşa quru əlaqəsi ilə Xəzərin enerji resursları Avropa bazarlarına daha asan çıxa biləcək. TRIPP dəhlizinin strateji əhəmiyyəti iqtisadi logistikadan çox-çox kənara çıxır. Bu, alternativ təchizat marşrutları və nəqliyyat kommunikasiyalarının yaradılması yolu ilə regionda Rusiya və Çin təsirini məhdudlaşdırmaq üzrə Amerika strategiyasının fiziki təzahürüdür. Bu dəhlizə nəzarət ABŞ-a nəinki Xəzər regionundan enerji axınına təsir göstərməyə, həm də iqtisadi inteqrasiya və hərbi-logistika əməkdaşlıq mexanizmləri vasitəsilə NATO-nun şərqə doğru genişlənməsi üçün ilkin şərtlər yaratmağa imkan verir. Türkiyə və Azərbaycanın müvafiq olaraq NATO üzvü və Alyansın yaxın müttəfiqi statusu nəzərə alınmaqla, bu layihədə iştirakı xüsusilə əhəmiyyətlidir. Türkiyə türk dünyasını birləşdirməyə doğru addım kimi Zəngəzur dəhlizinin tərəfdarıdır ki, bu da regionun türk dövlətləri ilə ittifaqlar şəbəkəsi vasitəsilə Amerikanın nüfuzu üçün əlavə imkanlar yaradır.

Mərkəzi Asiya güc balansında Pakistan faktoru

Amerikanın Pakistana dəstəyinin artması Mərkəzi Asiyada mürəkkəb regional dinamika fonunda baş verir. İslamabad ənənəvi olaraq Türkiyə və Azərbaycanla sıx əlaqələr saxlayır, Cənubi Asiyadan Qafqaz vasitəsilə Avropaya potensial təsir oxu yaradır. Bu ox Aİİ və Bir Kəmər və Yol Təşəbbüsü kimi regionda Rusiya və Çin inteqrasiya layihələrinə alternativ ola bilər. Bu konfiqurasiyada əfqan faktoru xüsusi rol oynayır.

Ardı Səh. 5

MƏTANƏT

Layladır, sevgidir, məlhəmdir, Zəfərdir, Azərbaycan musiqisi...

Həyatda ilk dəfə eşitdiyimiz səsdir, Azərbaycan musiqisi. Başımız üzərindəki anadır, dilindəki laylaydır, Azərbaycan musiqisi... Səsləndikcə həzin-həzin qulaqlarımıza axan, ruhumuza sığal, gözlərimizə xumardır, Azərbaycan musiqisi. Anamızın gözlərindən axan, ürəyimizə dolan sevgidir, Azərbaycan musiqisi...

Təbiətin dörd fəslidir, Azərbaycan musiqisi... Bahardır, quşların cəh-cəhi, suların bəzən lal, bəzən şaqqıltılı axışı, çəmənlərin, düzlərin ahəstə mehlə titrəşən gül-çiçəyidir, Azərbaycan musiqisi...

Yaydır, isti havada ürəklərə dirilik gətirən buz bulaqlardır, sıx yaşıllıq, bu yaşıllıqların istini dəf edən sərinidir, bu fəslin min bir rənginin harmoniyasıdır, Azərbaycan musiqisi.

Payızdır, küləyin qarşısına alıb qovduğu yarpaqların xışıltısı, təbiətin rəngarəng mövsümü olan bu fəslin romantikasıdır, Azərbaycan musiqisi...

Qışdır, günəşin bəmbəyaz qarın üzərində yaratdığı ulduzlardır, sanki kiçik oktavadan-bahardan üzü yuxarı qalxan, davam edə-edə qışda-son oktavada tamamlanan melodiyadır, Azərbaycan musiqisi...

Dənizdir, bəzən lal sükutla, bəzən ağıllı, bəzən dəli, amma hər halı ilə gözümüzü, ruhumuzu, duyğularımızı oxşayan dalğadır, Azərbaycan musiqisi...

Sarı Aşığın, Ələsgərin, Abbasın, Ululu Kərimin, Miskinli Vəlinin, Pərinin, Zülfiyyənin, Ulduzun və saymaqla bitməyən yüzlərlə sazlı-sözlü aşığımızın sinəsinə sıxıb saatlarla anlatdığı qoşma, gəraylı, müxəmməs, ustadnamə, qıfılbənd, təcnisdir, sazla sözün vəhdətidir, Azərbaycan musiqisi...

Seyidin, Xanın, Bülbülün, Cabbarın, İslamın, Zülfünün, Hacıbabanın, Arifin, Canəlinin, Alimin və adlarını sadalaya biləcəyimiz onlarla xanəndənin avazındakı muğamdır, təsnifdir, əllərindəki qavalda ritmdir, Azərbaycan musiqisi...

Sadıqcanın, Qurbanın, Məşədi Cəmilin, Mirzə Mənsurun, Əhmədin, Bəhramın, Elmanın, Habilin tar və kamançalarındakı sarı simdir, Azərbaycan musiqisi. Səsləndikcə qulaqlardan ürəklərə axan, bir andaca anaya, ataya, sevgiliyə, balaya, Vətənə, yurda, torpağa çevrilərək doğmalaşan sevgidir, Azərbaycan musiqisi...

Xalqın paklığını, yüksək mənəviyyatını, daxili aləmini, arzularını, ümidlərini özündə əks etdirən mahnıdır, Azərbaycan musiqisi. Şövkətin, Saranın, Rübabənin, Rəşidin, Gülağanın, Qədirin, Məmmədbağırın, Teymurun və saatlarla saya biləcəyimiz onlarla müğənnilərimizin qəlblərə məlhəm səsidir, Azərbaycan musiqisi. Və bu müğənnilərin ölkə-ölkə gəzdirdiyi, sevdirdiyi, tanıtdığı sənətidir, Azərbaycan musiqisi...

"Yallı", "Sarı gəlin", "Uzundərə", "Qaytağı", "Heyvagülü", "Qazağı", "Mirzəyi", "Turacı", "Tərəkəmə", "Ceyranı", "Qaytağı", "Xançobanı", "Süzmə", "Kəsmə", "Atlanma", "Çolağı" və onlarla bir-birindən gözəl rəqslərimizdəki süjetdir, çeviklik, qıvraqlıq, plastik hərəkətlərdir, Azərbaycan musiqisi...

"Leyli və Məcnun", "Şeyx Sənan" , "Rüstəm və Söhrab", "O olmasın, bu olsun", "Fərhad və Şirin", "Aşıq Qərib", "Şah İsmayıl", "Nizami", "Sevil" və onlarla belə operalarımızdakı libretto, musiqi-dram vəhdəti, solo və xor, simfonik orkestrdir, Azərbaycan musiqisi...

"Qız qalası", "Yeddi gözəl, "Məhəbbət əfsanəsi", "Min bir gecə", "Xeyir və şər", "Qarabağ harayı", "İldırımlı yollarla", "Şeyx Sənan", "Cavad xan", " Dədə Qorqud" və saymaqla bitməyən baletlərimizdəki xoreoqrafiyadır, Azərbaycan musiqisi...

Vətənpərvərliyə-igidliyə, ərliyə, qəhrəmanlığa səsləyən hərbi mahnı, marşdır, Azərbaycan musiqisi. Elə qəlbimizdəki bu musiqi 44 günlük Vətən müharibəsində biləyimizdəki gücə çevrildi. Azərbaycan musiqisinin beşiyi Qarabağı işğaldan azad etdik. Bu, tək ərazi bütövlüyümüzün bərpası deyildi. Həm də elə Azərbaycan musiqisinin xilası idi, deyilmi?.. Biz torpağımızı da, bu torpağın yetirib-bitirdiyi hər şeyi düşməndən geri aldıq. Düşmən üzərində tarixi Zəfər çaldıq. Və indi qürurla deyə bilərik ki, Zəfərdir, Azərbaycan musiqisi...

Zəngəzur Dəhlizi - Avrasiyaya geosiyasi çağırış

Əvvəli Səh. 4

Əfqanıstanda Pakistan kanalları ilə qidalana bilən qeyri-sabitlik Mərkəzi Asiya respublikalarına təzyiq imkanları yaradır. Mərkəzi Asiya ölkələri arasında Əfqanıstan İslam Əmirliyi ilə ən uzun sərhədə malik olan Tacikistan xüsusilə həssas vəziyyətdədir. Əgər Rusiyanın təhlükəsizlik zəmanətləri yetərsiz kimi qəbul edilərsə, Düşənbə alternativ dəstək mənbələri axtarmağa məcbur ola bilər. Rəsmi neytrallıq statusuna malik Türkmənistan xüsusi haldır. Aşqabad ənənəvi olaraq bütün əsas oyunçularla bərabər məsafəli münasibətlər saxlamağa çalışır, lakin ölkənin zəngin enerji resursları onu həm Rusiya-Çin, həm də Amerika-Avropa layihələri üçün cəlbedici tərəfdaş edir. TRIPP dəhlizi ilə Türkmənistanın enerji axınlarına nəzarət ABŞ üçün ciddi geosiyasi aktivə çevrilə bilər.

Regionun ən böyük iqtisadiyyatı olan Özbəkistan və Qazaxıstan da müxtəlif inteqrasiya layihələri arasında seçim qarşısındadır. Onların qərarları Mərkəzi Asiya regionunun gələcək konfiqurasiyasını və müxtəlif xarici oyunçuların təsir dərəcəsini müəyyən edə bilər.

Ermənistan geosiyasi təzyiqin mərkəzində

Ermənistanın yeni geosiyasi konfiqurasiyada mövqeyi xüsusilə mürəkkəb və çoxşaxəli görünür. İrəvan özünü müxtəlif regional və qlobal oyunçuların ziddiyyətli maraqlarının mərkəzində tapıb ki, bu da Rusiya ilə ənənəvi müttəfiqlik münasibətlərini şübhə altına alır və Qərbin təhlükəsizlik strukturlarına istiqamətlənmək üçün imkanlar açır. TRIPP dəhlizi layihəsi Ermənistan üçün həm risklər, həm də imkanlar yaradır.





Bir tərəfdən, tranzit hüquqlarının verilməsi əhəmiyyətli iqtisadi fayda gətirə bilər və Türkiyə və Azərbaycanın blokadası nəticəsində yaranmış təcridin aradan qaldırılmasına kömək edə bilər. Digər tərəfdən, ABŞ-ın dəstəyi ilə bölgədə Türkiyə-Azərbaycan təsirinin gücləndirilməsi Ermənistanın qonşu ölkələrə ərazi iddialarında mövqeyini daha da zəiflədə bilər. ABŞ-ın təzyiqi altında Ermənistanın NATO və ya Türk Dövlətləri Təşkilatına potensial qəbulu çətin görünsə də, regionda qüvvələr balansında köklü dəyişiklik olacağı təqdirdə tamamilə istisna olunmur. Belə bir addım Rusiyanın təsir dairəsindən tam kəsilmək demək olardı və digər postsovet dövlətləri üçün presedent ola bilər.

Ənənəvi olaraq Türkiyənin təsirindən ehtiyat edən Ermənistan cəmiyyətinin mövqeyi kritik amil olaraq qalır. Ermənistanı milli təhlükəsizliyə təhdid kimi qəbul edilən layihələrdə iştirak etməyə məcbur etmək üçün istənilən cəhd daxili siyasi böhrana və regionda sabitliyin daha da pozulmasına gətirib çıxara bilər. Eyni zamanda, İrəvanla Moskva arasında Qarabağ münaqişəsində Kremlin İrəvanın təhlükəsizliyini təmin edə bilməməsi ilə bağlı artan ziddiyyətlər Qərbin təsir imkanları pəncərəsi yaradır.

ABŞ bu pəncərədən iqtisadi layihələr və hərbi-texniki əməkdaşlıq proqramları vasitəsilə Ermənistanı tədricən Qərbin maraqları orbitinə çəkmək üçün istifadə edə bilər. Bölgədəki hazırkı vəziyyət yüksək dərəcədə qeyri-müəyyənlik və müxtəlif inkişaf ssenariləri ilə xarakterizə olunur. Amerika strategiyasının uğuru Vaşinqtonun regiondakı müttəfiqlərinin hərəkətlərini əlaqələndirmək, iqtisadi rıçaqlardan səmərəli istifadə etmək və bütün sistemin sabitliyinə xələl gətirə biləcək münaqişələrin genişlənməsinin qarşısını almaq bacarığından asılı olacaq.

Rusiyanın bu proseslərə reaksiyası və Moskvanın alternativ inteqrasiya modelləri təklif etmək bacarığı Mərkəzi Asiyada gələcək təhlükəsizlik arxitekturasının formalaşmasında müəyyənedici amillərə çevriləcək.

V.VƏLİYEV

P.S. Məqalədə xarici mətbuata istinadlar var

"Azərbaycan İslam həmrəyliyinin möhkəmlənməsinə töhfə verən ölkələrdən biridir"

"Azərbaycan dünyada İslam həmrəyliyinin möhkəmlənməsinə davamlı töhfələr verən ölkələrdən biridir və bunun nəticəsidir ki, geniş İslam coğrafiyasında, o cümlədən də Birləşmiş Ərəb Əmirliklərində ölkəmizə böyük rəğbət bəslənilir. Son illərdə dövlətimizin başçısının Ərəb Liqasının mötəbər tədbirlərinə fəxri qonaq qismində dəvətlər alması da bunun əyani sübutudur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Rəşad Bayramov deyib.

O bildirib ki, Azərbaycan BMT, İslam Əməkdaşlıq Təşkilatı ilə yanaşı, digər regional və beynəlxalq qurumlar çərçivəsində də Birləşmiş Ərəb Əmirlikləri ilə sıx əməkdaşlıq edir: "Təsadüfi deyil ki, əmirlik 1991-ci ildə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olub. Bu dövrdən başlayaraq iki ölkə arasında əlaqələr müxtəlif sahələrdə inkişaf edib. İllər ötdükcə, bu münasibətlər yüksəliş tendensiyasını qoruyub saxlayıb və son illər ərzində iki dövlət arasında ticarət nəzərəçarpacaq dərəcədə artıb. 2011-ci ildə isə BƏƏ-nin Bakıda səfirliyinin açılması münasibətləri daha da möhkəmləndirib. BƏƏ Prezidentinin 2024-cü ildə ilk xarici səfərini Bakıya etməsi isə yüksək xətlə inkişaf edən münasibətlərin kulminasiya nöqtəsi hesab edilə bilər.

İndi də BƏƏ Prezidentinin Azərbaycana səfərinin iki ölkə arasındakı münasibətlərin daha da dərinləşməsində yeni səhifə açacağı şübhəsizdir. Səfər çərçivəsində imzalanan sənədlər də bunu sübut edir. Məlum olduğu kimi "Azərbaycan Respublikası ilə Birləşmiş Ərəb Əmirlikləri arasında Hərtərəfli Strateji Tərəfdaşlıq Əlaqələri haqqında Birgə Bəyannamə", işçi qüvvəsinin mütəşəkkil qaydada müvəqqəti işə cəlb olunması sahəsində əməkdaşlıq haqqında, nəqliyyat sahəsində əməkdaşlıq haqqında, enerji sahəsində əməkdaşlıq haqqında, turizm əməkdaşlığı haqqında, Azərbaycan-BƏƏ Birgə Biznes Şurasının yaradılması haqqında, 2025-2028-ci illər üçün Süni İntellekt Strategiyasının icrası üzrə əməkdaşlıq haqqında və o cümlədən də yaşıl enerji zonalarında əməkdaşlıq haqqında Anlaşma Memorandumları imzalanıb.

Göründüyü kimi iki ölkə arasında siyasi dialoqun yüksələn xətt üzrə inkişafına adekvat olaraq ölkələrimiz qarşılıqlı maraqlar əsasında müxtəlif sahələr üzrə əlaqələri də genişləndirir. Təbii ki, xüsusilə də enerji sahəsində genişlənən əməkdaşlıq məmnunluq doğurur. Abşeronda, Naxçıvanda, işğaldan azad olunmuş ərazilərdə böyük yaşıl enerji potensialına malik olan Azərbaycan bu sahənin inkişafına, bərpaolunan mənbələrdən enerji alınmasına xarici investisiyaların cəlb olunmasına güclü siyasi iradə nümayiş etdirir. İndiyədək Azərbaycanın Energetika Nazirliyi ilə ayrı-ayrı xarici şirkətlər arasında müxtəlif layihələr üzrə investisiya müqavilələri imzalanıb. Bu sırada BƏƏ-nin "Masdar" şirkəti də xüsusi yer tutur. Deyilənlər onu sübut edir ki, BƏƏ Prezidentinin Azərbaycana səfəri iki ölkə arasında həm diplomatik, həm iqtisadi, həm də digər sahələrdə yüksək xətlə inkişaf edən tendensiyanı dəstəkləyəcək və daha da inkişaf etdirəcək".

Səbinə Hüseynli

Medianın İnkişafı Agentliyinin növbəti könüllülük proqramı uğurla yekunlaşıb

Medianın İnkişafı Agentliyinin (MEDİA) növbəti könüllülük proqramı uğurla yekunlaşıb. SİA xəbər verir ki, cari ilin aprel-iyul aylarını əhatə edən könüllülük proqramı gənclərin bilik və bacarıqlarını inkişaf etdirmələri, sosial layihələrə fəal qoşulmaları və media sahəsində praktiki təcrübə toplamaları üçün geniş imkanlar yaradıb. Könüllülər müxtəlif təlimlərdə, yerli və beynəlxalq tədbirlərdə, eyni zamanda, Agentlik tərəfindən həyata keçirilən "Media savadlılığı" həftəsinin və 3-cü Şuşa Qlobal Media Forumunun təşkilində iştirak ediblər.

MEDİA könüllüləri ilə görüş keçirən Agentliyin İcraçı direktoru Əhməd İsmayılov könüllülərin fəaliyyətini yüksək qiymətləndirərək gənclərin təşəbbüskarlığı və məsuliyyətli yanaşmasının proqramın uğurla yekunlaşmasında mühüm rol oynadığını qeyd edib. O, MEDİA könüllülərinin xüsusilə 3-cü Şuşa Qlobal Media Forumundakı rolundan, göstərdikləri yaradıcı yanaşma və komanda ruhundan danışıb. Sonda "MEDİA könüllüləri" Proqramını müvəffəqiyyətlə başa vuran 60-a yaxın gəncə sertifikatlar təqdim olunub.

UNEC MBA dünyanın ən yaxşıları sırasında: "QS MBA Rankings"də

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) növbəti dəfə beynəlxalq uğura imza atıb - ilk dəfə olaraq, dünyanın aparıcı universitetlərinin yer aldığı "QS MBA Rankings 2026" reytinqinə daxil olub. Bu barədə SİA-ya UNEC-dən məlumat verilib. UNEC bu reytinqdə dünya üzrə ən yaxşı 201-250-ci, Avropa üzrə 70-ci, Azərbaycanda isə 1-ci yerə yüksəlib. Qlobal təhsil məkanında əldə olunan bu uğurla UNEC Azərbaycan ali təhsilinin beynəlxalq səviyyədə nüfuzunu möhkəmləndirib. UNEC-in MBA proqramının QS reytinqinə daxil olaraq dünya universitetləri ilə bir sırada yer alması onun beynəlxalq arenada güclənən mövqeyinin göstəricisi, həyata keçirilmiş dəyişikliklərin real nəticəsidir.



Ey ədəb, sən nə gözəl imişsən...

Lalə Mehralı

Bəlkə də fərqindəsiniz, hər gün əvvəlki gündən də çox şikayətlənirik ədəbsizlikdən, mədəniyyətsizlikdən. Bizi gördüklərimiz incidir, şahidi olduqlarımız narahat edir. Ədəbin olmadığı anlarda yoxluğuna heyifsilənirik. Ədəb insanın geyimidir, hər birimizin bədəninə biçilmiş, həm görünməz, həm də göstərilə bilən geyimdir. O geyim sizi ətrafda ən ədəbli insan kimi də tanıda bilər, ən ədəbsiz biri kimi də. Seçim həm bizim əlimizdədir, həm də ailəmizin. Hər ailə bir ədəbsiz yetişdirib göndərsə cəmiyyətə, yaranacaq xaosu təsəvvür edə bilirsinizmi?

Ədəb mənim yaralı yerimdir, yumşaq qarnımdır. Təzada baxın ki, tərs kimi həmişə ədəbsizliyin nümayişinə şahid oluram. Oğlumu məktəbəqədər hazırlıq kursuna aparmışdım. Gözləmə zalında 3-4 yerə "Hörmətli valideynlər, sakitliyə riayət edin, dərsin gedişatına mane olmayın" yazısı yapışdırılmışdı. Amma ağız deyəni qulaq eşitmirdi salonda. Resepsiondakı qız dəfələrlə xahiş etdi ki, bir az sakit olun. Kimə deyirsən?

Film yükləmişdim telefonuma, ona baxmaq istədim, səs-küydən qulaqlıqla belə heç nə eşidə bilmədim. Kitab oxumağa çalışdım, olmadı, bağlayıb qoydum çantama. Analar elə bil illərdir bura toplaşmağı gözləyirmiş, durmadılar, dayanmadılar, hayla-küylə söhbət etdilər. Müəllimə çıxdı sinifdən, "dərsə mane olursunuz" dedi, 2 dəqiqə sonra yenə eyni şey. Kədərli mənzərədir, abırın ən çox yaraşdığı insanlarda - analarda abır-həya yoxdur, mədəniyyət yoxdur. Bütün bunları qoydum bir kənara, pul verirlər kursa, amma müqabilində keçiləcək dərsə mane olurlar. Qəribə təzaddır. İki kişi valideyn vardı gözləmə zalında, ikisinin də qulağında qolaqcıq, telefonda videoya, ya da filmə baxdılar 2 saat boyunca, səsləri çıxmadı.

Yas evlərində, mərasim zallarında da belədir. Nə ölənə hörmət var, nə ölənin yaxınına. Sanki qeybət acıdır qadınlar, suya, çörəyə olan aclıq kimi hərisdirlər qeybətə, dodaqları dayanmır. Baxırsan yan zalda kişilər də yas mərasimindədir, səsləri çıxmır, mollanı dinləyir hamısı. Amma qadınlar nə molla dinləyir, nə də sakit dayanır. Düzü, mollanı mən də canı-könüldən dinləmirəm, çünki məntiqli heç nə danışmırlar, ruhani bilik vermək yerinə qəbir əzabından, goreşəndən başqa bildikləri yoxdur. Amma sakit dayanmaq ədəbdir, hörmətdir və mən birinci özümə yaraşdırmaram kimsə danışanda danışmağı.

Mədəniyyətsizlik zəhərləyir bizi, öldürür yavaş-yavaş. Tərbiyə etdiklərimiz də özümüzə bənzəyir. Azlığın tərbiyəsindən çıxmış tərbiyəli uşaqlar da yavaş-yavaş zəhərlənəcəklər o mədəniyyətsizliyin təsiri ilə. İşıqforda yaşılı gözləməyən ananın sürüyüb zorla yolu keçirdiyi uşaq da qayda pozacaq, anasının susmadığını, danışana hörmət eləmədiyini görən uşaq da təkrar edəcək gördüklərini. Onlar bizi təqlid edir. Uşaq tərbiyəni anadan alır, onu həyata ana hazırlayır. Hazırlaya bilirmi çox qadın?

Milli musiqi irsimizi zənginləşdirən dahi sənətkar

18 Sentyabr - Milli Musiqi Günüdür

Sərhədsiz dünyaları aşan Azərbaycan musiqisini bəşəri edən böyük simaları, dahi sənətkarlarıdır. Milli və klassik musiqimizin Xan Şuşinski, Cabbar Qaryağdıoğlu, Rəşid Behbudov kimi böyük klassikləri milli irsimizə iz salaraq sənət tariximizi zənginləşdirməklə yanaşı, onun dünyada tanınmasında da rol oynamışlar.



Bu gün Azərbaycan bütün dünyaya öz musiqisi ilə səs salıb. Böyük sənətkarlar sırasında adı dünyada tanınan dahi bəstəkar Üzeyir Hacıbəylinin bəşər musiqi xəzinəsinə bəxş etdiyi nadir nümunələr böyük məhəbbətlə qarşılanır. Qeyri-adi istedadı ilə tanınan Üzeyir Hacıbəyli yaradıcılığı yüksək qiymətləndirilir. Əbəs yerə deyil ki, sentyabrın 18-də ölkəmizdə Üzeyir Musiqi Günü qeyd olunur. 1995-ci ildə həmin gün dövlət statusu alır. Ümummilli Lider Heydər Əliyevin Sərəncamı ilə hər il 18 Sentyabr Üzeyir Musiqi Günü kimi qeyd olunmağa başlandı. Dünya musiqi xəzinəsinə parlaq incilər bəxş edən Üzeyir Hacıbəyli Azərbaycanda peşəkar musiqinin banisidir, bəstəkarlıq məktəbinin, musiqili komediya janrının yaradıcısıdır, Şərqdə operanın, operettanın əsasını qoyub, dövlət xorunu, simfonik orkestri yaradıb, dünya musiqi xəzinəsini ölümsüz əsərləri ilə zənginləşdirib. Dahi bəstəkar Azərbaycan Dövlət Himninin müəllifidir. Bu gün Azərbaycan bayrağı, məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, həmçinin, tədbirlər bu himnin sədaları altında başlayır. Belə bir zəngin irsin müəllifinə çevrilən Üzeyir Hacıbəylini doğum günündə Azərbaycanda musiqi günü keçirilir. Üzeyir dünyası xatırlanır və vərəqlənir. Belə bir irsin yaradıcısı böyük bir sevgi ilə yad olunur. Üzeyir Musiqi Günü münasibətilə respublikamızda bir çox konsertlər, tədbirlər, sərgilər təşkil olunur. Bu il də müxtəlif səpgili tədbirlər keçirilir və bu davam etdirilir. Bildiyimiz kimi, dahi Azərbaycan bəstəkarı, Şərqdə ilk operanın yaradıcısı, böyük musiqişünas-alim, istedadlı publisist, dramaturq və pedaqoq, tanınmış ictimai xadim, Xalq artisti, Dövlət mükafatları laureatı, Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü Üzeyir Əbdülhüseyn oğlu Hacıbəylinin anadan olmasının 140 ili tamam olur.

Azərbaycan bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli novator sənətkar kimi milli musiqi xəzinəsini unikal forma və janrlarla zənginləşdirmişdir. O, Şərqin və Qərbin musiqi nailiyyətlərinin dərin vəhdətində dünya musiqisinin qızıl fondunda fəxri yer tutan nadir sənət inciləri meydana gətirmiş, Azərbaycan mədəniyyətinə beynəlxalq miqyasda geniş şöhrət qazandırmışdır. Azərbaycan mədəniyyətinin inkişafına misilsiz töhfələr vermiş qüdrətli sənətkar Üzeyir Hacıbəylinin anadan olmasının 140-cı ildönümünün layiqincə keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalamışdır.

MƏDƏNİYYƏT PAYTAXTIMIZIN YETİRMƏSİ

Ölkəmizdə Üzeyir Musiqi Günlərinin ənənə halını alması xalqımızın qədirbilənliyidir. Həmin gün ölkəmizin hər yerində bu münasibətlə belə bir təntənəni yaşadan Üzeyir Hacıbəyli sənət və həyat yolunun məsafəsində bu ömrün yazılmış maraqlı səhifələrini oxuyuruq. Kənd mirzəsi ailəsində doğulmuş sənətkarın daim sənətə doğru olan addımları onun dünyaşöhrətli bir sənətkar kimi yetişməsinə səbəb olmuşdur. Şuşanın zəngin musiqi-ifaçılıq ənənələri Hacıbəylinin musiqi tərbiyəsinə müstəsna təsir göstərmişdir. Azərbaycanın tarixi mədəniyyət mərkəzi olan Şuşa tanınmış elm, maarif, musiqi və incəsənət xadimlərinin vətəni hesab edilir. XIX əsrin ikinci yarısında Şuşa şəhər əhalisinin sayı tanınmış alim və sənətkarlar da daxil olmaqla 25 minə çatmışdı. Mənbələrə əsasən, XIX əsrdə Şuşada 95 şair, 22 musiqişünas, 38 xanəndə, 19 xəttat, 16 nəqqaş, 12 nüsxəbənd, 5 astronom, 18 memar, 16 həkim, 42-yə qədər müəllim və s. olub. Bu böyük ziyalı təbəqəsi Şuşa şəhərini mədəniyyət mərkəzinə çevirməkdə, burada elmi, təhsili və mədəniyyəti inkişaf etdirməkdə çox böyük rol oynayıblar. Xurşidbanu Natəvan, Molla Pənah Vaqif, Mir Möhsün Nəvvab Qarabağı, Qasım bəy Zakir, Əbdürrəhim bəy Haqverdiyev, Süleyman Sani Axundov, Fatma xanım Kəminə, Nəcəf bəy Vəzirov, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Mirzə Salah bəy Zöhrabbəyov, Mirzə Ələsgər Növrəs, Qəmər bəyim Şeyda, Səfərəli bəy Vəlibəyov, Cəlil bəy Bağdadbəyov, İsgəndər bəy Rüstəmbəyov, Cahangir bəy Zeynaloğlu, Kərim bəy Mehmandarov, Həmidə xanım Cavanşir, Həsənəli xan Qaradağı, Nəriman bəy Nərimanbəyli, Bədəl bəy Bədəlbəyli, Haşım bəy Vəzirov, Əhməd bəy Ağaoğlu, Ceyhun bəy Hacıbəyli və onlarla maarifçi, şair, dramaturq, publisist və ictimai xadimlərin həyatında Şuşa mühitinin mühüm rolu olub. Ü.Hacıbəyli də məhz belə bir mühitdə böyüyüb, sənət zirvəsinə yüksəlmişdir.

GİZLİ İMZALARLA YAZILAN MƏQALƏLƏR

Onun ilk müəllimi Azərbaycan musiqisinin gözəl bilicisi, dayısı A.Əliverdibəyov olmuşdur. O, 1899-1904-cü illərdə Qori Müəllimlər Seminariyasında təhsil almışdır. Bu bəstəkarın dünyagörüşünün formalaşmasında böyük rol oynamışdır. Hacıbəyli seminariya illərində qabaqcıl dünya mədəniyyəti ilə yaxından tanış olmuşdur. O, burada Avropa musiqi klassiklərinin əsərlərini mənimsəmiş, skripka və baritonda çalmağı öyrənmiş, xalq mahnı nümunələrini nota köçürmüşdür. Seminariyanı bitirdikdən sonra Hacıbəyli 1904-cü ildə Cəbrayıl qəzasının Hadrut kəndinə müəllim təyin edilmişdir.

Ü.Hacıbəyli Rusiyada 1905-1907-ci illər inqilabı ərəfəsində Bakıya gəlmiş, Bibiheybətdə, sonralar isə "Səadət" məktəbində dərs demiş, 1907-ci ildə Bakıda Azərbaycan türkcəsində "Hesab məsələləri" və "Mətbuatda istifadə olunan siyasi, hüquqi, iqtisadi və əsgəri sözlərin türki-rusi və rusi-türki lüğəti"ni nəşr etdirmişdir. Üzeyir Hacıbəyli eyni zamanda parlaq bədii dühası sayəsində Azərbaycan dramaturgiyasına dəyərli töhfələr vermiş, alovlu publisistikası ilə mətbuat salnaməsinə yeni səhifələr yazmışdır. Onun azərbaycançılıq məfkurəsi ilə yoğrulmuş dolğun ictimai-siyasi fəaliyyəti əsl vətənpərvərlik nümunəsidir. Hacıbəyli bədii yaradıcılığa publisistika ilə başlamışdır. O, "Kaspi", "Həyat", "İrşad", "Tərəqqi", "Həqiqət", "İqbal", "Yeni İqbal" qəzetlərində və "Molla Nəsrəddin" jurnalında "Ordan-burdan", "O yan-bu yan" və s. başlıqlar altında "Ü", "Filankəs", "Behmankəs" və s. gizli imzalarla dövrün mühüm ictimai-siyasi, maarifçilik məsələlərinə dair çoxlu məqalə, felyeton və satirik miniatürlər dərc etdirmişdir.

BÜTÜN MÜSƏLMAN ŞƏRQİNDƏ OPERANIN ƏSASI QOYULDU

Hacıbəylinin 1908-ci il yanvarın 12-də Bakıda Hacı Zeynalabdin Tağıyevin teatrında göstərilən "Leyli və Məcnun" operası ilə təkcə Azərbaycanda deyil, bütün müsəlman Şərqində opera sənətinin əsası qoyulmuşdur. Hacıbəyli operanın librettosunu Füzulinin eyniadlı poeması əsasında yazmışdır. Hacıbəyli 1909-1915-ci illərdə bir-birinin ardınca "Şeyx Sənan", "Rüstəm və Söhrab", "Şah Abbas və Xurşud banu", "Əsli və Kərəm", "Harun və Leyla" muğam-operaların liberettosunu xalq dastanları və rəvayətlər, Firdovsinin "Şahnamə" əsərinin motivləri əsasında yazmışdır. O, "Leyli və Məcnun"dakı üslub xüsusiyyətlərini və estetik sənət prinsiplərini sonrakı operalarında da davam etdirmişdir. Ü.Hacıbəyli 1911-ci ildə musiqi təhsilini artırmaq üçün Moskvaya getmiş, həmin il burada filarmonik cəmiyyətin musiqi kurslarında, 1913-cü ildə isə Peterburq Konservatoriyasında oxumuşdur. Peterburq dövrü Hacıbəylinin yaradıcılığında mühüm rol oynamış, o, "Arşın mal alan" musiqili komediyasını, məhz burada yaratmışdır. Hacıbəyli 1921-ci ildə Bakıda Azərbaycanlı tələbələr üçün ilk musiqi məktəbini - Azərbaycan Dövlət Türk Musiqi Məktəbini təşkil etmişdir. Üzeyir bəy Azərbaycan musiqisində köklü dönüş yaratmış dahi bəstəkardır. Azərbaycan və ümumiyyətlə, Şərq musiqisinin gələcək inkişaf perspektivlərini, estetik prinsiplərini müəyyənləşdirmişdir. Ü.Hacıbəyli həm də böyük musiqişunas-alim idi. O, müasir Azərbaycan elmi musiqişunaslığının əsasını qoymuş, musiqiyə dair çoxlu məqalələr yazmış və tədqiqatlar aparmışdır. Hacıbəylinin "Arşın mal alan" musiqili komediyası ingilis, alman, çin, ərəb, fars, polyak, ukrayna, belarus, gürcü və s. dillərə tərcümə edilmişdir.

MUSİQİ BEŞİYİMİZƏ QAYITMIŞIQ

Bu gün 30 ilə yaxın bir zamanda işğal altında olan torpaqlarımız azad olunmuş və böyük sənətkarların da ruhu azad nəfəs alır. 1985-ci ildə Üzeyir Hacıbəylinin 100 illik yubileyi münasibətilə Şuşada bəstəkarın heykəli ucaldılmışdı. Heykəltəraş Əhməd Salikov tərəfindən hazırlanan abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edildi. 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunan ərazilərimizdə aparılan abadlıq-quruculuq işləri çərçivəsində tarixi-dini abidələrimiz, tarixi şəxsiyyətlərin ev muzeyləri və s. təmir və bərpa olunur. Bu sırada Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli hazırlandı və heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradıldı. Heydər Əliyev Fondunun dəstəyi ilə büründən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb. Ermənistan Silahlı Qüvvələrinin 1992-ci ildə Şuşanı işğal edərkən Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan və Bülbülün gülləbaran etdiyi heykəlləri bu gün artıq Şuşaya qaytarılıb. "Güllələnmiş heykəllər" Azərbaycan Prezidenti İlham Əliyevin Şuşaya səfəri zamanı oraya aparıldı və dövlət başçısı heykəllərin açılışında iştirak etdi. Bundan əlavə, 44 günlük Vətən müharibəsində Ali Baş Komandanın qətiyyəti, Ordumuzun şücaəti nəticəsində tarixi ədalət bərpa edildikdən sonra Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan olundu.

Üzeyir Hacıbəyli çoxşaxəli yaradıcılığı ilə Azərbaycan mədəniyyəti tarixində silinməz iz qoymuş qüdrətli şəxsiyyətlərdəndir. Ömrünü cəmiyyətin mədəni tərəqqisinə həsr edən fədakar ziyalının yüksək mənəvi-estetik dəyərə malik irsi Azərbaycan xalqının XX əsrin ilk onilliklərindən vüsət almış ədəbi-mədəni intibahının aynasıdır. Azərbaycan professional musiqi sənətinin banisi Üzeyir Hacıbəylinin dünyaya gəldiyi 18 sentyabr ölkəmizdə ənənəvi olaraq Milli Musiqi Günü kimi təntənə ilə qeyd olunur.

Zümrüd BAYRAMOVA

20 sentyabr: "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?" deyənlərə CAVAB

2020-ci il noyabrın 10-da 44 günlük Vətən müharibəsi üçtərəfli bəyanatın imzalanması ilə başa çatanda, xalq Qarabağın işğaldan azad olunmasını toy-bayram edəndə bəzi qüvvələr ölkə başçısının rəhbərliyi altında milli ordumuzun zabit və əsgərlərinin qəhrəmanlığı ilə əldə olunan Zəfəri ismin altı halının hər birində hallandırmaqla narazı qaldıqlarını bildirdi, böyük qələbəyə kölgə salmağa çalışdılar. Hansı ki, onlar hər zaman narazıdırlar. Razı qalacaqları gün nə vaxt olacaq, bu da məlum deyil.

Zəfər günündən etibarən yeni mövzu atdılar meydana: bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran? Bunlar qaldı axı. Hansı Zəfərdən danışırsınız? Nə üçün müharibə yarımçıq dayandı? Bu necə müharibədir? Bu söz-söhbət o zaman danışılırdı ki, hələ Laçın, Kəlbəcər, Ağdam qarşıdakı mərhələdə qaytarılacaqdı. Və buna da həmin dairələrin nümayəndələri tərəfindən böyük inamsızlıq vardı.

Lakin düşməni 44 gün ərzində tamamilə çökdürmüşdük. Elə bu səbəbdən də ağ bayraq qaldırıb təslim olduğunu bildirmişdi. Laçın, Kəlbəcər və Ağdamın boşaldılması üçün vaxt istəmişdi. Azərbaycan dövləti isə bütün dünyaya humanistliyini nümayiş etdirərək qonşu düşmən dövlətə bütün bu olanlardan, yaşananlardan sonra yenə də insanpərvərliklə yanaşdı və onlara torpaqlarımızdan çıxmaq üçün zaman verdi.

Düşmən 20 noyabrda Ağdamı, 25 noyabrda Kəlbəcəri, 1 dekabrda isə Laçını tərk etdi, torpaqlarımızı geri qaytardı. Beləliklə, Qarabağ və Şərqi Zəngəzurun böyük bir hissəsi işğaldan azad edildi. Və həmin torpaqlarda dərhal bərpa işlərinə başlandı ki, 30 il yurd-yuvasından məcburi şəkildə köçkün düşən soydaşlarımız torpaqlarına qayıda bilsin, bir qərinəyə yaxın dövrün hicranının vüsal anı yetişsin.

Cəhənnəmə gedən status-kvo

Bir məsələni-"status-kvo"nun cəhənnəmə getdiyini anlamaq bu qədərmi çətin idi, yoxsa buna inamsızlıqdan doğurdu həmin söz-söhbət? Axı "Dağlıq Qarabağ Muxtar Vilayəti" artıq yox idi, dövlətimizin başçısı bunu ləğv etmişdi. Deməli, bu pərdə arxasında gizlənənlərin xülyaları da darmadağın edilmişdi. Qalırdı bircə onların Azərbaycan qanunlarına tabe olmaları-Azərbaycan torpaqlarında bu qanunlar çərçivəsində yaşamaları. Buna isə təbii ki, torpaqlarımızı qurd kimi basmış separatçı-terror qruplaşmaları imkan vermirdi. Onlar yeni münaqişələr yaratmaqla bizim torpağımızda at oynatmaq meyilində idilər.

3 il idi ki, müharibə bitsə də, problemlər davam edirdi: minalanmış ərazilərin xəritəsi verilmirdi, atəşkəs pozulurdu, Qarabağ və Şərqi Zəngəzurda tez-tez terror hadisələri törədilirdi. Bu hadisələrə isə içimizdən olan bəzi ünsürlər yenə də rəngarəng don geyindirir, hələ üstəlik, ermənilərin tərəfində dayanaraq onların nahaq səsinə səs verirdilər.

Bir tərəfdən də Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgərana guya ki, canıyananlıq edirdilər. Anlamaq istəmirdilər ki, bu torpaqlar da azad edilən torpaqların sırasındadır. Sadəcə zaman çatmalıdır ki, o yurdlara da bayrağımız sancılsın.

Necə ki, ötən 30 ilə qədər dövrə son qoymağın məqamı yetişmişdi, biz torpaqlarımızı azad etmək üçün hazır olduğumuzu hiss edib müharibə meydanına atılmışdıq, 44 gündə Qarabağın dastanını yazmışdıq, eləcə də zamanın yetişməsi, hadisələrin öz axarı ilə cərəyan etməsi lazım idi ki, bu torpaqlarda da bayrağımız dalğalansın. Lakin bunu anlamayan, bütün bunları hər gün müzakirə edib don geyindirənlər sakitləşmək bilmirdi. Barmaqla sayılacaq qədər olanların hər biri siyasətçiyə, siyasi ekspertə çevrilmişdi. Ağıllarına və ağızlarına gələni danışmaqla guya özlərini xalqa ürəyi yanan kimi qələmə verirdilər. Lakin xalqın onların kim olduğunu əsla unutmayacağını nə üçün yadlarından çıxarmışdılar, bunu da anlamaq bir qədər çətin idi. Bəlkə də bu kimi sayıqlamaları ilə xalqın ürəyini yenidən qazanmaq fikrinə düşmüşdülər, bu da anlaşılmayan bir məsələ idi.

Dövlətimizin başçısı nəyi nə zaman və necə etməyi özünün də vurğuladığı kimi, çox gözəl bilir. Elə bu yüksək bacarığa görə də Azərbaycan xalqı ötən beş il ərzində son 300 ilə yaxın tarixdə olmayanı edə, qazana bildi: torpağını azad etdi, düşməndən geri aldı.

Budur, Xankəndi

30 il idi ki, Qarabağdan söz düşəndə başımızı aşağı dikirdik. Çünki biz məğlub xalq idik. Məsələ bizim namus və şərəfimizlə bağlı idi. Süfrəmizin artığı ilə aclığını dəf edən erməni adlı qonşu yanımızdaca özünə yer edə-edə torpaqlarımıza göz dikmiş və məqamı gələndə onu bizdən qoparmışdı. Düşmən 30 il ərzində torpaqlarımızın yeraltı-yerüstü sərvətlərini də daşıyıb dünya bazarlarına çıxarmış, satıb, sovmuşdu.

30 il idi ki, minlərlə soydaşımız köçkün həyatı yaşayırdı. Erməni isə onların evlərini daşıyıb dağıtmış, od vurub yandırmışdı. Soydaşlarımız yurd həsrətlisinə çevrilmişdi. Dövlət tərəfindən 30 ildə nə qədər qayğı ilə əhatə olunsalar da, torpaqlarını, öz yurdlarını arzulayır, buna görə də üzlərindən kədər əskik olmurdu.

Torpaqlarımız işğaldan azad olunandan sonra xeyli vaxt səsi çıxmayan erməni terrorçuları isə torpaqlarımızda peyda olub yeni əməliyyatlara başlamışdılar ki, artıq bunun qarşısı alınmalı idi.

2023-cü ilin 15 oktyabrda Xankəndidə Azərbaycan bayrağını qaldıran dövlətimizin başçısı da bu məsələyə münasibət bildirmişdi: Keçən ay antiterror əməliyyatı qaçılmaz idi. Azərbaycan xalqı yaxşı bilir və əminəm dünya ictimaiyyəti də yaxşı bilir ki, biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsini sülh yolu ilə həll etmək istəyirdik. On yeddi il ərzində mən şəxsən mənasız və nəticəsiz danışıqlarda dəfələrlə iştirak etmişəm. Nə üçün? Çünki hesab edirdim ki, bu məsələ sülh yolu ilə həll olunmalıdır. Ancaq getdikcə ümidlər azalırdı. Ermənistanın işğalçı siyasətini bir daha təhlil edərək tam əminliklə bu gün deyə bilərəm ki, onlar bir qarış torpaq belə bizə qaytarmaq fikrində deyildilər. Əfsuslar olsun ki, bu məsələ ilə məşğul olmuş vasitəçilər faktiki olaraq münaqişəni dondurmaq istəyirdilər, münaqişəni əbədi etmək istəyirdilər. İstəyirdilər ki, bu yara heç vaxt sağalmasın. Azərbaycan xalqı və dövləti bu vəziyyətlə heç vaxt barışa bilməzdi. Mən dəfələrlə deyirdim ki, biz heç vaxt bu vəziyyətlə barışmayacağıq, heç vaxt imkan verməyəcəyik ki, bizim torpağımızda ikinci erməni dövləti yaradılsın.

Budur, bu da nəticə, Azərbaycan xalqı öz torpaqlarında erməni terrorçularına qarşı antiterror əməliyyatı həyata keçirdi və onları məhv etdi.

Bu gün Xankəndidə dalğalanan Azərbaycan bayrağı bu xalqın birliyinin, həmrəyliyinin, qəhrəmanlığının nümayişi, göstəricisidir.

Budur, Xocalı

1992-ci ilin fevral ayının 25-dən 26-na keçən gecə erməni quldurları Xocalıda soydaşlarımıza qarşı dünyada analoqu olmayan faciə törətdi. Xocalılılar bir gecənin qurbanına çevrildilər. Onlar qışın qılınc kimi kəsən şaxtalı bir gecəsində öz isti ocaqlarından zorla çıxarılıb dağa-daşa salındı, səsini çıxaran ailəsinin gözü qarşısında güllələndi, uşaqlar süngülərə keçirildi. Ən acınacaqlısı isə odur ki, səhəri gün öldürülmüş insanlara düşmən tərəfindən işgəncə verildi, onların burun-qulaqları, əl-ayaqları kəsildi, dəriləri soyuldu.

Bütün bunlar bax, 2023-cü ilin 15 oktyabrında dövlətimizin başçısının Azərbaycan bayrağını dalğalandırdığı Xocalıda baş vermişdi. O zamandan ta ötən illərədək Xocalının haqq səsinin dünyaya yayılması uğrunda dövlətimiz yorulmadan mübarizə aparmışdır. Ondan çox ölkə Xocalı soyqırımını tanımış, "Xocalıya ədalət!" hərəkatı geniş beynəlxalq vüsət almışdır.

Ötən günlərədək Xocalıdakı o müdhiş gecədə sağ qalan soydaşlarımız torpaq həsrəti ilə alışıb-yanırdı. Dövlətimizin başçısının Xocalıda Azərbaycan bayrağını qaldırması bütün xalqın qüruru oldu. Eyni zamanda, bununla həyatlarını 1992-ci ildə faciəli şəkildə itirmiş xocalıların qisası alındı.

Çox keçmədi, bütün zad edilmiş torpaqlarımız kimi, Xocalıda da bərpa işlərinə başlanıldı, bu əzəli yurd yerinə yeni həyat gəldi və hazırda xocalılıların bir hissəsi doğma torpağına qayıdıb. Yaxın gələcəkdə isə onların hər biri yurduna-evinə qayıdacaq. Bunun üçün işlər sürətlə həyata keçirilir.

Budur, Ağdərə, Xocavənd, Əsgəran

Qarabağın dilbər guşələrindən olan Ağdərə, Xocavənd və Əsgəran da illərlə erməni işğalı altında inləyən yurd yerlərimizdən idi. Bu torpaqlarda yaşayan soydaşlarımız da erməni vəhşiliyinə uğramış, uzun illər torpaq dərdi sağalmaz yaralarına çevrilmişdi.

Erməni işğalına qədər Ağdərənin 14 kəndində 14 mindən çox azərbaycanlı yaşayıb. Ağdərə rayonu keçmiş Dağlıq Qarabağdakı bir çox ərazilər kimi Birinci Qarabağ müharibəsinin başlanğıcında erməni silahlı qüvvələrinin nəzarəti altına keçir. 1992-ci ildə Azərbaycan ordusunun hücumu nəticəsində Ağdərə rayonu ərazisinin bir çox hissəsi erməni işğalçılarından azad edilir.

1 il boyunca Ağdərə şəhəri ətrafındakı kəndlərdə və yüksəkliklərdə aramsız döyüşlər gedir. Lakin 1993-cü ildə Azərbaycanda 4 iyun Gəncə qiyamı baş verir. Qarabağ cəbhəsində döyüşən orduya rəhbərlik edən Surət Hüseynov mərkəzi hakimiyyətə qarşı qiyam edərək Bakıya doğru hücuma keçir. Onun rəhbərlik etdiyi ordu bölmələri öz mövqelərini qoyaraq Bakıya doğru hücuma qoşulur. Bundan məharətlə istifadə edən erməni ordusu 7 iyul 1993-cü ildə Ağdərə şəhərini və rayonun bir çox kəndlərini yenidən işğal edir. 19 sentyabr 2023-cü ildə başlanan lokal xarakterli antiterror əməliyyatlarının nəticəsində Ağdərə rayonu 24 sentyabr 2023-cü ildə Azərbaycan ordusu tərəfindən azad olunub.

Xocavənd 2 oktyabr 1992-ci ildən 10 noyabr 2020-ci ilə kimi Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olub. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xocavənd şəhəri Rusiya sülhməramlı qüvvələrinin nəzarətinə keçdi. 26 sentyabr 2023-cü ildən şəhərə Azərbaycan silahlı qüvvələri nəzarət edir.

Xocalı rayonunun Əsgəran qəsəbəsi də Ermənistan Respublikası Silahlı Qüvvələri tərəfindən 1992-ci ildə işğal olunmuşdu. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Əsgəran qəsəbəsi Rusiya Sülhməramlı qüvvələrinin nəzarətinə keçmişdi.

19-20 sentyabr 2023-cü il tarixində Qarabağda həyata keçirilən lokal antiterror tədbirlərindən sonra Azərbaycan Ordusu Əsgəran qəsəbəsinə nəzarəti ələ keçirib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 15-də Xankəndi və Xocalı kimi, Ağdərədə, Xocavənddə və Əsgəranda da dövlət bayrağını ucaldıb.

20 ildən artıq zamanın təntənəsi

Həm 44 günlük İkinci Vətən müharibəsi, həm 2020-ci ildən Qarabğda və Şərqi Zəngəzurda həyata keçirilən böyükmiqyaslı quruculuq işləri, məcburi köşkünlərimizin artıq bir qisminin ata-baba yurdlarına geri dönməsi, həm də 2023-cü ildə həyata keçirilən 23 saatlıq antiterror tədbirləri ötən 20 ildən artıq zamanın təntənəsidir. Ölkəmizin hərtərəfli inkişafını təsdiq edən Zəfərdir. Bu illərdə iqtisadi gücümüzün artmasının, dünyada tanınmağımızın, milli ordumuzu yaratmağımızın, dövlət-xalq birliyininə nail olmağımızın, milli vətənpərvər ruhlu gənclərin yetişdirilməsinin, onların torpaq sevgisi ilə böyüdülməsinin, ümumilikdə torpaqlarımızı azad etməyə qadir olduğumuzu və bunu bütün dünya qarşısında nümayiş etdirə bildiyimizin təntənəsidir.

2023-cü ilin 15 oktyabrda dövlətimizin başçısının Qarabağın digər bölgələrində də Azərbaycan bayrağını qaldırması 20 illik yekun dəyərində idi. Prezident cənab İlham Əliyevin Xankəndidəki çıxışında vurğuladığı kimi: Bu gün tarixi bir gündür. Bu gün Xankəndi şəhərinin mərkəzi meydanında Azərbaycan Bayrağı qaldırıldı. Bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm.



Düz 20 il bundan əvvəl Azərbaycan xalqı mənə böyük etimad göstərərək prezident seçkilərində Prezident vəzifəsinə seçmişdir. O vaxt doğma xalqıma müraciət edərək söz vermişdim ki, Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli maraqlarını müdafiə edəcəyəm, Azərbaycanın ərazi bütövlüyünü qoruyacağam. Konstitusiyaya və "Qurani-Kərim"ə əl basaraq and içmişdim. Şadam ki, son 20 il ərzində verdiyim bütün vədlər, qarşıma qoyduğum bütün vəzifələr icra edildi.

Bu gün bütün Azərbaycan xalqı ürəkdən sevinir, bütün Azərbaycan xalqı "Allaha şükür" deyir. Bu günü biz 30 ildən çox gözləmişdik. Ancaq hər birimiz, əminəm və inanırdıq ki, bu gün gələcək.

İyirmi il bundan əvvəl Prezident kimi öz vəzifə borcumu yerinə yetirməyə başlayanda qarşıma bir nömrəli vəzifə qoymuşdum ki, Azərbaycan Bayrağı o vaxt işğal altında olan bütün ərazilərdə, bütün torpaqlarda, bütün şəhər və kəndlərdə qaldırılsın. Hər gün, hər saat biz bu müqəddəs məqsədə doğru gedirdik. Hər gün biz bu müqəddəs anı yaxınlaşdırırdıq və dəfələrlə deyirdim ki, hər birimiz, hərə öz yerində öz işi ilə bu günü yaxınlaşdırmalıdır...

Bu illər ərzində Azərbaycan gücləndi, Azərbaycan dünya miqyasında özünə layiq yerini tuta bildi. Artıq Azərbaycanla dünyada hesablaşırlar. Ölkəmizin mövqeyi, dövlətimizin addımları nəinki bölgədə, daha da böyük coğrafiyada böyük məna daşıyır. Bir çox hallarda Azərbaycan önəmli təşəbbüslərin müəllifidir. Biz bu illər ərzində Ermənistan-Azərbaycan münaqişəsini həll etmək üçün güclü bir siyasi və hüquqi zəmin yaratdıq. Eyni zamanda, biz güclü iqtisadiyyat yaratdıq və son 20 il ərzində bu istiqamətdə əldə edilmiş uğurlar göz qabağındadır. Bizim iqtisadiyyatımız dörd dəfədən çox artıb. Güclü iqtisadiyyat müstəqillik deməkdir. Müstəqillik heç vaxt şərti olmamalıdır. Əsl müstəqilliyə nail olmaq üçün güclü iqtisadiyyatın olmalıdır, güclü ordun olmalıdır.

Ordumuzun gücləndirilməsi işində yorulmadan çalışdıq. Elə bir güclü ordu yaratdıq ki, bu gün Azərbaycan Silahlı Qüvvələri istənilən vəzifəni şərəflə yerinə yetirə bilər və biz bunu döyüş meydanında sübut etdik, həm üç il bundan əvvəl Vətən müharibəsi dövründə cəmi 44 gün ərzində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdik, eyni zamanda, keçən ay cəmi 23 saat davam edən antiterror tədbirləri bizim gücümüzü göstərdi və yenə də düşmən ağ bayraq qaldıraraq təslim oldu. Biz haqlı olaraq Silahlı Qüvvələrimizlə fəxr edirik.

Bu gün burada olmağımızın əsas səbəbkarı Azərbaycan xalqıdır, Azərbaycan övladıdır. Elə bir gənc nəsil yetişdirdik ki, Vətən, torpaq uğrunda ölümə getməyə hazır idi və ölümə də gedirdi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz onların ruhu qarşısında baş əyirik. Biz Azərbaycan xalqı olaraq onlara əbədi borcluyuq. Həm üç il bundan əvvəl, həm son üç il ərzində, həm də sentyabr ayında keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan əsgəri, zabiti əsl qəhrəmanlıq, vətənpərvərlik, fədakarlıq göstərmişdir. Biz Ordumuzla, Silahlı Qüvvələrimizlə fəxr edirik, onlar bizim qürur mənbəyimizdir. Təkcə Azərbaycan vətəndaşları yox, əminəm ki, dünyada yaşayan on milyonlarla azərbaycanlı Azərbaycan əsgəri və zabiti ilə, Azərbaycan dövləti ilə haqlı olaraq fəxr edir.

Haradasınız "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran?" deyənlər...

Bir neçə vaxtdır ki, 30 ildən artıq bir dövrdə susmayan, görülən işlərə kölgə salmağa çalışan bir qrup ünsürün nədənsə səs-sədası gəlmir. Bu nə səssizlikdir belə? Bəlkə utanmaq hissidir, irəli sürülən fikirlərin, uydurulan yalanların əsassızlığına peşman olmaqdır. Bəlkə əsassızcasına arxalarında dayandıqları nahaqların biz haqlı insanlardan üstün tutulmasına görə xəcalət hissidir. Bəlkə arzuladıqlarının əksinə baş verən hadisələrə təəssüf hissidir. Bəlkə də illərlə danışdıqları boş-boş sözlərin puç olmasının susqunluğudur. Bəlkə də növbəti uğursuzluqlarının susqunluğudur. Bilmirəm bunlardan hansıdır, lakin çox susqundur dünənədək dil-dil ötənlər. Düşünürəm ki, bir vaxtlar "bəs Laçın, Kəlbəcər, Ağdam?" deyənlər çox keçmədən necə susdularsa, sonra "Bəs Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran, bu, qələbədirmi?" deyərkən və nəticəni görərkən də eyni qaydada susdular.

Susmaqdan başqa əlacı olmayan başqa nə edə bilər ki?.. Çox güman ki, danışmağa yeni mövzu axtarışına çıxıblar, tapan kimi yenə də varlıqlarını hiss etdirəcəklər. Lakin bir məsələ unudulmamalıdır ki, onlar da Qarabağın azadlığı ilə şərəf, ləyaqət və namusu xilas olan, başını artıq dik tutan xalqa mənsubdurlar. Nə qədər özlərini kənara çəksələr də...

Mətanət Məmmədova

Elçin Bayramlı

Bakıda gərginliyi necə azaltmaq olar?

Son dövrlərdə paytaxt yollarındakı tıxaclar Bakı sakinləri üçün ən ciddi problemlərdən birinə çevrilib. Son məlumata görə, Azərbaycanda avtomaşınların ümumi sayı 1.8 milyona, minik avtomobillərin sayı isə 1,6 milyona çatıb. Son illərdə ölkəyə ildə 70-80 min minik avtomobili idxal olunur. Bunların və ümumən ölkədəki avtomaşınların yarıdan çoxunun Bakı və Abşeron yarımadasında olduğu məlumdur. Üstəlik, son illərdə Bakıda tikinti bumunun müşahidə olunması və şəhərin sıx şəkildə tikilmiş hündür binalarla dolması paytaxtda gərginliyi artırıb. Nəticədə şəhər həyatı artıq iflic olmaq üzrədir.

Avtomobillərin sayında son illər artım müşahidə olunsa da, Azərbaycan hər 1000 nəfərə düşən avtomobillərin sayına görə dünyada heç də maşın sayının çoxluğu olan ölkələr sırasında yer almır. Bu göstəriciyə görə ölkəmiz dünyada 107-ci yerdədir.

Azərbaycanda hər 1000 nəfərə 135 minik avtomobili düşür. İnkişaf etmiş ölkələrdə adambaşına düşən avtomobil sayı bizdən dəfələrlə çoxdur. Yeni Zenlandiya və ABŞ-da hər 1000 nəfərə həmin ölkələrdə uyğun olaraq 897 və 868 avtomobil düşür. Region ölkələrindən Rusiyada hər 1000 nəfərə 397, Gürcüstanda 378, Moldovada 363, Belarusda 343, Qazaxıstanda 207, Qırğızstanda 201 avtomobil düşür. Rəqəmlərin müqayisəsi də göstərir ki, Azərbaycanda hər 1000 nəfərə düşən avtomobillərin sayı əksər region ölkələri ilə müqayisədə xeyli azdır.

Göründüyü kimi, problem maşın sayında deyil, məsələ nəqliyyatın hərəkətinin düzgün idarə edilməsindədir. Qeyd edək ki, son illərdə Bakının sərnişindaşıma sistemində problemlər daha da artıb, sərnişin sıxlığı çıxalıb. Avtobusların sayı azalıb, marşrutların intervalı çoxalıb. Metroda artıq acınacaqlı vəziyyət yaranır. Artıq şəhərkənarı ərazilərdə də tıxaclar baş verir. Özü də təkcə işə gedib-gəlmək saatlarında deyil, adi vaxtlarda da.

Son illərdə bu istiqamətdə aparılmış işlər tıxac problemini həll edə bilməyib, bu səbəbdən də digər və xüsusən dolayı hesab olunan tədbirlərə ehtiyac var. Əksər inkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, dövlət və özəl daxil olmaqla təhsil və iş müəssisələrin fərqli iş saatlarında işə başlaması və fərqli saatlarda işi başa çatdırması yollarda tıxacları, nəqliyyatda sərnişin sıxlığını azaldır.

Bundan başqa, ictimai nəqliyyatda xidmət keyfiyyətinin yüksəldilməsi tıxacın azaldılmasına səbəb ola bilər. Bunun üçün digər sərnişin nəqliyyatı sistemlərinin də bərpasına ehtiyac var (tramvay, trolleybus, şəhərətrafı elektrik qatarları və s.), həmçinin dəniz üzərindən sərnişin katerlərinin təşkil olunması.

Lakin bunlar lokal tədbirlərdir. Müvəqqəti tədbirlər problemi tam və birdəfəlik aradan qaldırmır. Problemin həllinə fundamental yanaşılmalı, kompleks şəkildə gəll edilməlidir. İlk növbədə, əhalinin Bakıya cəmləşməməsi, əskinə paytaxta toplaşmış region əhalisinin bölgələrə qayıtması üçün sosial iqtisadi tədbirlər görülməlidir. Digər şəhərlərdə fabrik və zavodlar tikilməli, bəzi ali məktəblər başqa şəhərlərə köçürülməlidir.

Qarabağın bərpası sürətləndikcə Bakıda müvəqqəti yaşayan qaçqın və köçkünlərin həmin bölgəyə yerləşdirilməsi Bakıdakı sıxlığı azalda bilər. Yaxın 5 ildə təkcə Qarabağa yarım milyon nəfərin yerləşdirilməsi mümkündür. Digər bölgələrin də potensialından effektiv istifadə edilə bilər. Xammalın bol olduğu rayonlarda emal müəssisələri, xüsusən də yeyinti və yüngül sənaye müəssisələri açıla bilər. Bakıdakı bəzi zavod və fabriklər rayonlara köçürülə bilər. Bölgələrdə kiçik və orta sahibkarlığa yardımlar göstərilə, istehsal obyektləri üçün faizsiz kreditlər, vergi və gömrük güzəştləri verilə bilər.

Bu da regionlarda iqtisadi canlanma yaradar, əks-urbanizasiya prosesi başlayar. Əgər əhalinin yerləşməsi, iqtisadiyyatın regional balanslaşdırılması baş tutsa, ölkəmizin davamlı və tarazlı inkişafı təmin olunar, bir çox sosial problemlər də aradan qalxar.

Bu səbəbdən, hesab edirik ki, hökumət "Kəndə qayıdış" proqramı elan etməli, rayonların sosial-iqtisadi həyatının canlanmasına hər cür dəstək verməlidir. Bunun üçün müvafiq maliyyə ehtiyatları da kifayət qədərdir. Azərbaycanın 75 milyard dollarlıq strateji valyuta ehtiyatları var. Bunun cəmi 5-10 milyardını cəlb etməklə, həmçinin qeyri-dövlət investisiyalarını təşviq etməklə bu işləri həyata keçirmək olar. Nəticədə həm paytaxtımızın yükü azalar, həm də regionlar sürətli inkişaf edər.

Neft sülhün açarıdırmı?

ABŞ Rusiyanın Avropaya gedən boru kəmərini bağlayır

ABŞ-ın respublikaçı senatoru Lindsey Graham deyib ki, Macarıstan və Slovakiya Rusiyadan neft almağı dayandırmasa, fəsadlarla üzləşə bilər. Donald Tramp israr etməkdə davam edir ki, avropalılar Rusiya neftini almağı dayandırsınlar. ABŞ-ın maliyyə naziri Scott Bessent hesab edir ki, Avropa ölkələri Rusiya neftinin alıcılarına ciddi sanksiyalar tətbiq etsələr, Ukraynadakı müharibə 60-90 günə bitə bilər.

Avropaya təzyiq

Dövlət katibi Bessentin sözlərinə görə, Avropa bu istiqamətdə öz qəti addımlarını atana qədər ABŞ Rusiyadan alışı dayandırmaq üçün Çin mallarına əlavə rüsumlar tətbiq etməyi planlaşdırmır. Bessent vurğulayıb ki, Avropa Moskvanın neft satışından əldə etdiyi gəlirin azaldılmasında fəal iştirak etməlidir, çünki bunlar Ukraynadakı müharibəni maliyyələşdirən vəsaitlərdir.

Slovakiyanın baş naziri Robert Fiko və Macarıstanın baş naziri Viktor Orbanın sözlərinə görə, ABŞ prezidenti Rusiya neftinin Aİ-yə idxalını öz müttəfiqlərinə bir zənglə dayandıra bilər. Eyni zamanda, Trampın tələbi neftinin yarıdan çoxunu Rusiyadan idxal edən Türkiyənin enerji siyasətində əsaslı dəyişikliyi də nəzərdə tutur ki, bu da çətin ki.

Təhlilçilər Trampın bəyanatının səmimi niyyətdən çox PR-a bənzədiyini irəli sürürlər: o, ənənəvi olaraq Putinlə birbaşa qarşıdurmadan yayınıb. Bundan əlavə, bəzi ekspertlər bunu Avropa ölkələrini daha çox Amerika nefti və qazı almağa məcbur etmək cəhdi kimi qiymətləndirirlər, xüsusən də gözlənilən yeni LNG (qaz) axını və ABŞ-da neft qiymətlərinin aşağı düşməsi fonunda sənayedə işçilərin ixtisarına səbəb olub.

Macarıstan və Slovakiya üçün problemlər

ABŞ-ın respublikaçı senatoru Lindsey Graham deyib ki, Macarıstan və Slovakiya Rusiya neftini almağı dayandırmasa, fəsadlarla üzləşə bilər. Qrem qeyd etdiyi kimi, ABŞ prezidenti Donald Tramp Avropadan Rusiya neftini almağı

dayandırmağı tələb edərkən haqlıdır. O xatırladıb ki, Avropa Rusiya nefti və qazının alışını əhəmiyyətli dərəcədə azaldıb və bu, ”yaxşı xəbərdir”. ”Rusiya neftinin alışına gəlincə, onlar indi praktiki olaraq Macarıstan və Slovakiya ilə məhdudlaşıb. Ümid edirəm və gözləyirəm ki, onlar tezliklə bu qan gölünə son qoymağımıza kömək edəcək addımlar atacaqlar. Əks halda, nəticələr qaçılmaz olacaq”, - senator yekunlaşdırıb.

Slovakiyada Fico hökumətinə qarşı etirazlar yenidən başlayıb

Son etiraz dalğasına Fikonun Çinə səfəri və orada Putinlə görüşməsi səbəb olub. AP xəbər verir ki, Slovakiyada baş nazir Robert Fikonun iqtisadi siyasətinə qarşı ümummilli kütləvi etirazlar yenidən başlayıb. Bratislava da daxil olmaqla 16 böyük şəhərdə mitinqlər keçirilib. Son etiraz dalğasına Fikonun Rusiyanın Ukraynaya genişmiqyaslı müdaxiləsindən sonra üçüncü dəfə Kreml lideri Vladimir Putinlə görüşdüyü Çinə səfəri səbəb olub. Və hökumətin bu yaxınlarda təsdiqlədiyi qənaət paketi etirazçıları daha da qəzəbləndirib.

”Slovakiyalılar bundan beziblər”, - ”Tərəqqiçi Slovakiya” partiyasının rəhbəri Michal Sime?ka Bratislavanın Azadlıq Meydanında toplaşanlara deyib. Xatırladaq ki, KİV daha əvvəl Macarıstan və Slovakiyanın 6 rus oliqarxının Aİ-nin sanksiya siyahısından çıxarılmasını tələb etdiyi barədə məlumat vermişdi.

19-cu Sanksiya Paketi

Komissiya tezliklə Rusiyada kriptovalyutalara, banklara və enerjiyə yönəlmiş yeni məhdudiyyətlər seriyasını təqdim edəcək. Avropa Komissiyasının sədri Ursula fon der Leyen, Rusiyanın kripto aktivlərini, eləcə də Rusiyanın bank və enerji sektorlarını məhdudlaşdırmağa yönələcək Avropa İttifaqının 19-cu sanksiyalar paketini təqdim etməyi planlaşdırdığını açıqladı. Von der Leyen bu barədə X şəbəkəsində məlumat verib.

Məlumat onun ABŞ prezidenti Donald Trampla telefon danışığından sonra məlum olub. Von der Leyen qeyd edib ki, müzakirə məhsuldar keçib və onun təcavüzkar hərəkətlərinə qarşı birgə mübarizə naminə Rusiyaya iqtisadi təzyiqin artırılması tədbirlərinə həsr olunub. Onun sözlərinə görə, komissiya artıq Rusiya iqtisadiyyatının əsas maliyyə və enerji aspektlərinə yönəlmiş yeni məhdudiyyətlər seriyası hazırlayır. Kripto aktivlərlə bağlı sanksiyalara xüsusi diqqət yetiriləcək. Ursula fon der Leyen Rusiyanın qalıq yanacaq gəlirlərinin Ukraynadakı hərbi əməliyyatlar üçün maliyyə mənbəyi olduğunu da vurğulayıb. Bununla əlaqədar olaraq, o, Aİ ölkələrinin Rusiya qalıq yanacaq idxalından tədricən imtina etməsi prosesinin sürətləndirilməsinin zəruriliyini vurğulayıb.

Bundan əvvəl 19-cu sanksiya paketinin təqdimatının müvəqqəti olaraq təxirə salındığı məlum olub. Qərarın Avropa ölkələrindən Rusiya neftinin alınmasını dayandırmasını tələb edən ABŞ prezidenti Donald Trampın təzyiqi ilə əlaqədar olduğu iddia edilir. Bloomberg yazır ki, Avropa İttifaqının Rusiyaya qarşı yeni sanksiyalar paketi daha sonra açıqlanacaq, çünki avropalılar G7 ilə vahid yanaşmanı razılaşdırmağa çalışırlar.

Rusiyanın qərb qonşuları sərhədlərini möhkəmləndirir

Oktyabrın 1-də keçiriləcək Aİ-nin qeyri-rəsmi sammitinin gündəliyində duran bəndlərdən biri də ”cəbhəyanı dövlətlərin” sərhəd mühafizəsi üçün ayrılan vəsaitin artırılması olacaq. Bu termin indi Brüsseldə Rusiya və Belarusa bitişik olan Avropa İttifaqının üzvləri: Polşa, Litva, Estoniya, Latviya və Finlandiya tərəfindən istifadə olunur. Baltikyanı ölkələr Aİ səviyyəsində qərar gözləmədən sərhədi öz qüvvələri ilə gücləndirmək qərarına gəliblər. Estoniyanın müdafiə planları ən təsirli görünür. Bu kiçik ölkə Rusiya ilə sərhəddə əsl müdafiə xətti yaratmağı planlaşdırır.

Yerli mətbuatın məlumatına görə, istehkamların tikintisinə artıq başlanılıb. ”2027-ci ilin sonuna qədər bizdə 40 kilometrdən çox tank əleyhinə xəndəklər, eləcə də ya artıq qazılmış, ya da heç olmasa onların yerləşdiyi yerə mümkün qədər yaxın saxlanılan 600-ə yaxın bunker hazır olmalıdır”, - Estoniya Müdafiə Qüvvələrinin Baş Qərargahının mühəndis-inspektoru Ainar Afanasyev bildirib. Artıq sərhədin Estoniya tərəfində düşmənin zirehli texnikasının hərəkəti üçün ”Əjdaha dişləri”, yəni konus formalı beton maneələr tikilib. Onlar Litvada və Latviyada da var. Latviyanın Müdafiə Təchizat Mərkəzi yayda yenidən məlumat vermişdi ki, Rusiya və Belarusla sərhədlərdə yanğından mühafizə konstruksiyalarının on minlərlə elementinin yerləşdiyi mühəndis ehtiyatları anbarları: Latviya şirkətləri tərəfindən istehsal olunan beton bloklar, ”əjdaha dişləri”, tank əleyhinə kirpilər və s. 4810 hasar direyi, 550 beton blok, ən azı 1300 şnek, 150 dəmir-beton yol bloku, 1160 tank əleyhinə kirpi və 10 eroziyaya qarşı həsir bütün bunlar keçilməz sərhədin qurulmasına gedəcək.

Baltikyanı ölkələrin hakimiyyət orqanlarının pilotsuz təyyarələrin kütləvi istifadəsi dövründə Rusiya zirehli texnikası üçün maneələrin qurulmasından niyə belə narahat olduqları çox aydın deyil. Görünür, onlar hesab edirlər ki, Rusiya pilotsuz təyyarələrinin potensial hücumları NATO müttəfiqlərini narahat edir. Litva, Latviya və Estoniya alyans ölkələrinin birgə hava hücumundan müdafiəsini gücləndirmək ideyasını ən fəal şəkildə dəstəkləyir.

Bu arada, ötən gün Helsinkiyə səfər edən Avropanın daxili işlər və miqrasiya üzrə komissarı Maqnus Brunner bildirib ki, Finlandiya sərhədin möhkəmləndirilməsi üçün Aİdən təxminən 1,6 milyard avro alacaq - bu, əvvəllər aldığından təxminən üç dəfə çoxdur. Pul 2028-ci ildən ayrılacaq. Ona görə də Avropa İttifaqı şərqdən gələn təhlükənin uzunmüddətli xarakter daşıyacağına hazırlaşır. Aİ sərhəd mühafizəsi mövzusuna yanaşmasını kökündən dəyişir. Əgər əvvəllər Birləşmiş Avropanın sərhədlərinin möhkəmləndirilməsi zərurəti haqqında danışarkən Brüsseldə yalnız Aralıq dənizi ölkələrinə getməyə çalışan qeyri-qanuni miqrantlara qarşı tədbirlərin gücləndirilməsini nəzərdə tuturdularsa, indi getdikcə daha çox hərbi mühəndislik strukturlarının yaradılmasından söhbət gedir. Eyni Finlandiya Aİ-nin pulunu sözdə pilotsuz təyyarə divarının tikintisinə xərcləməyi planlaşdırır. Bu, dron hücumları üçün maneələr sistemidir. Onun dəqiq harada yerləşəcəyi, təbii ki, məlumat verilmir. Amma ola bilsin ki, bir vaxtlar məşhur Mannerheim xəttinin istehkamlarıdır. Bir neçə il əvvəl əksər finlərə elə gəlirdi ki, buna ehtiyac birdəfəlik aradan qalxıb. Amma indi, təəssüf ki, zaman dəyişib və Finlandiyada, eləcə də bütün digər ”cəbhəyan dövlətlərdə” ictimai rəy Rusiyanı təhlükə hesab edir.

V.VƏLİYEV

İslam dünyası ilə həmrəylik

Azərbaycanın İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatı olan ICESCO ilə münasibətləri möhkəm təmələ əsaslanır. 1979-cu ildə təşkil edilmiş ICESCO ilə Azərbaycan dövləti yaxından əməkdaşlıq edir. Azərbaycan İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verir. Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir. Müasir dövrümüzdə ölkəmizdə islami dəyərlər, multikulturalizm məktəbi və tolerantlıq yeni dövrünü yaşayır. Dünyada baş verən siyasi proseslər, müsəlman ölkələrindəki müharibə və münaqişələr, bəzi ölkələrdə islamofobiyanın yayılması islam dünyasında həmrəyliyin zəruriliyini bir daha əyani surətdə göstərir. Belə şəraitdə Azərbaycan dünyada həmrəyliyin, eləcə də islam həmrəyliyinin təmin edilməsinin tərəfdarı kimi çıxış edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 15-də Şuşada ICESCO-nun Baş direktoru Səlim bin Məhəmməd əl-Maliki qəbul etməsi əlaqələrimizin yüksək səviyyədə olduğunu bir daha nümayiş etdirir. Söhbət zamanı ICESCO-nun Baş direktorunun ölkəmizə, o cümlədən Şuşaya səfərləri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlanıb.

Səlim bin Məhəmməd əl-Malik Şuşa şəhərinin gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını qeyd edib. Görüşdə işğaldan azad edilmiş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı abadlıq-quruculuq işləri yüksək qiymətləndirilib. Dövlətimizin başçısı mədəniyyətimizin təşviqinə verdiyi dəstəyə görə ICESCO-nun Baş direktoruna təşəkkürünü bildirərək qeyd edib: "Bir daha sizə Azərbaycana göstərdiyiniz dəstəyə, mədəniyyətimizin, azad edilmiş bölgələrimizin mədəniyyətinin təşviqinə görə minnətdarlığımı bildirirəm. Bir təşkilat olaraq ICESCO Qarabağa ilk səfərlərdən birini həyata keçirib, siz isə orada olmuş ilk əcnəbi vətəndaşlardansınız. Siz bununla həmrəylik nümayiş etdirdiniz, habelə bu ərazilərdə nələrin dağıdıldığı barədə məlumat verərək səsinizi ucaltdınız. Biz bunu heç zaman unutmayacağıq. Sizin rəhbərliyinizlə Şuşanın ICESCO tərəfindən İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi qərarı hər bir azərbaycanlını qəlbən fərəhləndirdi. Cıdır düzündə sizin də iştirakınızla keçirilmiş tədbirdə unudulmaz ab-havanın şahidi oldunuz. Bu, xoşbəxtliyin, qürurun və geri dönüşün vəhdəti idi". Azərbaycan Prezidenti İlham Əliyev bütün bunları nəzərə alaraq, onu Azərbaycanın yüksək dövlət mükafatı olan "Dostluq" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Dövlət başçımız həmin ordeni ona təqdim edib.

SƏLİM BİN MƏHƏMMƏD ƏL-MALİK: "MƏN BU ORDENİ BİR SİMVOL OLARAQ HƏR ZAMAN XATIRLAYACAĞAM"

Səlim bin Məhəmməd əl-Malik isə Azərbaycan Prezidentinə təşəkkürünü bildirib. "Mən bu ordeni dərin minnətdarlıq hissi ilə qəbul edirəm. Bu, yalnız şəxsən mənim deyil, mənimlə birlikdə çalışan və fəaliyyətimdə mənə dəstək olan hər kəsin əməyinə verilən qiymətdir. Həmin insanlar biliyin irəliyə aparılması, mədəniyyətin qorunması və sülhün bərqərar edilməsi istiqamətində əllərindən gələni edənlərdir. Mən bu ordeni bir simvol olaraq hər zaman xatırlayacağam və əminəm ki, mənimlə yanaşı, bu ordenlə ailəm, həmkarlarım və dövlətim də fəxr edəcək".

Ölkəmizin müsəlman dünyası ilə əlaqələrinin genişlənməsi prosesi son dövrlər daha intensiv xarakter almışdır. İslam həmrəyliyinin gücləndirilməsi məqsədi ilə Azərbaycan dövləti ardıcıl olaraq siyasət yürüdür. Bakı şəhərinin 2009-cu il üçün İslamın paytaxtı, eləcə də Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı elan olunması ICESCO-Azərbaycan münasibətlərini bir daha aydın göstərir. Təşkilatın rəhbəri 2006-cı ildən etibarən respublikamızda keçirilmiş bir sıra beynəlxalq əhəmiyyətli tədbirlərdə fəal iştirak etmişdir. Bu sırada Bakıda keçirilmiş "Gənclər sivilizasiyaların alyansı naminə" mövzusunda beynəlxalq konfrans, Heydər Əliyev Fondunun təşəbbüsü, ICESCO-nun dəstəyi ilə keçirilmiş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda forum, "Bakı - İslam mədəniyyətinin paytaxtı - 2009" mədəniyyət ilinin açılış mərasimi, İslam ölkələri mədəniyyət nazirlərinin VI konfransı, Dünya Dini Liderlərinin Bakı Sammiti və Ümumdünya Mədəniyyətlərarası Dialoq və digər tədbirlərin adlarını qeyd etmək yerinə düşər. ICESCO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva sivilizasiyalararası dialoqun təşviqi, təhsil və digər sahələrdə çoxşaxəli fəaliyyətində sözügedən təşkilatla əlaqələri diqqətdə saxlayır.

2-3 dekabr 2019-cu il tarixlərində ICESCO-nun Baş qərargahında keçirilmiş İslam Dünyası İrsi Komitəsinin növbədənkənar toplantısında Azərbaycan mədəni irs nümunələri -Bakının İçəri Şəhər, Qız Qalası və Şirvanşahlar Saray Kompleksi, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi, Qobustan Qaya Sənəti Mədəni Landşaftı İslam Dünyası İrsi Siyahısına daxil edilmişdir. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir. Bildiyimiz kimi, Azərbaycan 2017-ci ildə "İslam Həmrəyliyi Oyunları"nı qəbul etdi, Ölkəmizdə Cənab İlham Əliyevin Sərəncamı ilə "İslam Həmrəyliyi İli" elan olundu. Bu, islam ölkələrinin birliyinə verilən ən böyük töhfə oldu. İslam Konfransı Təşkilatının üzvü və ya müşahidəçisi olmayan ölkə ICESCO-nun üzvlüyünə iddia edə bilməz. Bu baxımdan müstəqil Azərbaycan "İslam dünyasının BMT-si" adlandırılan İslam Əməkdaşlıq Təşkilatın da fəal üzvüdür.

ICESCO-NUN ÖLKƏMİZİN HAQQ İŞİNİ DƏSTƏKLƏYƏN BƏYANATLARI

Azərbaycan Prezidenti İlham Əliyevin çıxışlarının birində bildirdiyi kimi, Azərbaycanın İslam həmrəyliyinin gücləndirilməsi istiqamətində böyük səylər göstərir. Tarixi keçmişi, dini. mədəni və mənəvi dəyərləri ilə islam dünyasının ayrılmaz hissəsi olan Azərbaycan töhfəsini verir. Ermənistanın Azərbaycana qarşı təcavüzü nəticəsində işğal olunmuş torpaqlarında İslam dininə aid tarixi və mədəni irsin və ibadət ocaqlarının dağıdılıb və təhqir olunubdur. 30 ilə yaxın erməni işğalına məruz qalmış Azərbaycanın 20 faizə yaxın torpağı işğal altında idi. BMT-nin Qarabağın Azərbaycana məxsus olduğunu rəsmi sənədlərlə təsdiqləməsinə baxmayaraq, qurum ötən 30 ildə münaqişənin həlli üçün heç bir müsbət addım atmadı.

Ermənistanın Azərbaycan torpaqlarını işğalı, tarixi və mədəni irsimizin dağıdılması, Ermənistanın işğal altındakı torpaqlarda qeyri-qanuni fəaliyyəti kimi bir çox məqamlara münasibət bildirən İSESKO 2016-cı il aprel hadisələrinə də öz mövqeyini bildirmişdir. 2016-cı il aprel hadisələrinə münasibət bildirən ICESCO-nun keçmiş Baş direktoru Əbdüləziz Osman Əl Tüveycri bəyanatında Ermənistanın heç vaxt

BMT-nin 4 qətnaməsini yerinə yetirməyə çalışmadığını və buna görə də təmas xəttində son münaqişələrə görə məsuliyyətin Ermənistana məxsus olduğunu bildirmişdir. Beynəlxalq təşkilatların Ermənistanı işğal

etdiyi rayonları tərk etməyə məcbur etmək üçün kifayət qədər səy göstərmədiyini bildirən Əl Tüveycri, ICESCO-nun Ermənistanın bu zorakılığını pisləyən və beynəlxalq təşkilatları buna son qoymağa və işğal olunmuş rayonlardan çıxarılmasını təmin etməyə çağıran bəyannamə qəbul etdiyini bildirmişdir. 31 yanvar 2019-cu il tarixində İSESKO tərəfindən Ermənistanın işğal etdiyi Azərbaycan ərazilərində Sərsəng su anbarından yeni su kanalı çəkilməsi cəhdlərini beynəlxalq hüququn kobud şəkildə pozulması kimi qiymətləndirən bəyanat verilmişdir. 5 oktyabr 2012-ci ildə baş tutmuş Bakı Beynəlxalq Humanitar Forumunda iştirak edən ICESCO-nun keçmiş baş direktoru Əbdüləziz bin Osman əl-Tüveycri bu tədbirdə də vurğulamışdır ki, Ermənistanın Azərbaycan torpaqlarını işğalı beynəlxalq hüquqa və BMT-nin qətnamələrinə ziddir. Özlərini beynəlxalq birlik adlandıran Fransa, ABŞ və Rusiya - həmsədrlər ədalətin bərpa olunması üçün heç bir addım atmadılar. 44 günlük Vətən müharibəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. 28 il ərzində BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini icra etməyən Ermənistan cəmi 44 gün ərzində öz məğlubiyyəti ilə barışdı. İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra Azərbaycan sülh danışıqları təşəbbüsü ilə çıxış edərək sülh yolu ilə həllin beş əsas prinsipini işləyib hazırladı. Azərbaycan Ermənistanla münasibətlərin sülh yolu ilə həllinə töhfə vermək üçün ciddi addımlar atır.

Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın 28 ildən artıq müddətdə Ermənistanın işğalı və hərbi təcavüzü ilə üzləşməsinə baxmayaraq, məhz ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra Ermənistan ilə münasibətlərin normallaşdırılması və Cənubi Qafqazda davamlı sülhün təmin olunması üçün sülh müqaviləsi təşəbbüsü ilə çıxış edib. Vətən müharibəsi zamanı ICESCO-nun ölkəmizin haqq işini dəstəkləyən bəyanatlar verməsi və müharibədən sonra bölgəyə texniki heyət göndərən ilk beynəlxalq təşkilat olması Azərbaycanda yüksək qiymətləndirilir.

Azərbaycan- ICESCO əməkdaşlığının mühüm nəticələrindən biri də Şuşa şəhərinin 2021-ci ildə "Azərbaycanın mədəniyyət paytaxtı", 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsindən sonra "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsidir. Şuşa şəhərinin İslam dünyasının mədəniyyət paytaxtı elan edilməsi Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği istiqamətində olduqca əhəmiyyətli hadisədir. Şuşanın 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi şəhərin İslam sivilizasiyasının mərkəzlərindən biri kimi əhəmiyyətinin nümayişi üçün yaxşı fürsət olmuş oldu. Bildiyimiz kimi, 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edildi. Bu qərar islam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsi idi və İslam dünyasının həmrəyliyinin yeni rəmzinə çevrilməklə qarşılıqlı əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsində müstəsna rol oynadı. Hazırda Azərbaycan təşkilatın fəal üzvlərindən biri kimi, müsəlman dünyasının üzləşdiyi cari problemlərin həllində aktiv iştirak edir. Təşkilatın qarşısında duran vəzifələrin yerinə yetirilməsində qətiyyət və təşəbbüskarlıq göstərir.

Nəzakət ƏLƏDDİNQIZI

Türkiyə Yaxın Şərqdə təhlükəsizliyi təmin edir

Dünyada yeni müharibələr, münaqişələr yaranmaqdadır. Yəni hazırkı çalxalanan dünyamız yeni müharibələrlə alovlanmaqdadır. Bu dəfə Misir, Türkiyə və digər ərəb, müsəlman ölkələri ilə İsrail üz-üzə gələ bilər. Çünki hazırda İsraillə Türkiyə arasında münasibətlər gərgin durumdadır. Hər an xırda bir qığılcım amansız müharibəyə çevrilə bilər. Xüsusilə də, İsrailin sentyabrın 9-da Qətərin paytaxtı Dohaya endirdiyi gözlənilməz hava zərbəsi mümkün toqquşmaların baş verə biləcəyi ehtimalları yaradır.

Türkiyə İsraili qısa müddətdə çıxılmaz duruma sala biləcəyi proqnozlaşdırılır. Çünki Türkiyə hərbi sənaye baxımından İsraildən qat-qat üstündür. Digər tərəfdən psixoloji üstünlükdə Türkiyənin tərəfindədir. Ən azı ona görə ki, yüz illər hazırkı İsrail torpaqları, eləcə də Qüds Tükrkiyənin varisi olduğu Osmanlı əraziləri olub. Hələ də yerli əhali Osmanlı imperiyasının zamanında tətbiq edilən müəyyən qayda və qanunlara riayət edir, mədəniyyətlərini yaşadırlar. Bunu şübhəsiz ki, İsrailin siyasi hakimiyyəti də anlayır. Ona görə də, Türkiyəyə qarşı ABŞ-ın təqdim etdiyi proqramdan kənara çıxan fikirlərin səslənməsinə və addımların atılmasına yol vermir. Sadəcə özləinin qürurlarını qorumağa xidmət edən fikirlər səsləndirirlər. Məsələn, İsrailin baş naziri Benyamin Netenyahu bəyan edib ki, onlar Türkiyə ilə münaqişəyə girmək istəmirlər, lakin bu baş versə, onlar geri çəkilməyəcəklər.

Onu nəzərə almaq lazımdır ki, bədəvi ərəblərlə druzlar arasında baş verən qarşıduma zamanı İsrail ikincilərin yanında yer almağa çalışdı və Suriya ordusunu hədəfə aldı, bədəvi ərəblərin yaşadıqları əraziləri bombaladı. Bu zaman Türkiyə xarici işlər naziri Hakan Fidan Suriyanı tək qoymayacaqlarını və qardaşlarımıza yardım edəcəklərini bəyan etdi. Eyni zamanda nazir Hakan Fidan Suriya Türkiyənin milli təhlükəsizlik məsələsi olduğunu bildirincə İsrail eyni soy-kökdən olduqlarını iddia etdikləri druzlara hərbi dəstək verməkdən imtina etdilər. Hətta İsrail Suriyanın ərazisində olan ordusunu geri çəkdi. Bütün bunlar onu deməyə əsas verir ki, İsrail Türkiyə ilə münaqişəyə girməkdən ehtiyat edir. Sadəcə yuxarıda qeyd etdiyim kimi qürurunu və özü haqqında formalaşmış imici çirkləndirməmək üçün siyasi rəhbərlik adından populist fikirlər səsləndirilir. Türkiyə isə fikrində ciddi görünür. Yəni İsraili Dohaya endirdiyi hava zərbələrinə görə peşman etməyə çalışır.

”Kim danışıqlar apardığı tərəfi öldürmək üçün səylə və sistemli şəkildə çalışırsa, danışıqlara mane olmaq məqsədi daşıyır”

Sentyabrın 14-ü və 15-də İslam Əməkdaşlıq Təşkilatı (İƏT) və Ərəb Liqasının Qətərin paytaxtı Dohada dövlət başçıları səviyyəsində fövqəladə Birgə Zirvə Toplantısı keçirilib. Sammitin İsrailin sentyabrın 9-da Dohaya hücumundan sonra keçirilməsi də Türkiyənin İsraili cəzalandırmaq fikrində qərarlı olduğunu göstərir. Toplantı Türkiyənin sədrliyi və dəstəyi ilə keçirilib. Sammit İsrailin 7 oktyabr 2023-cü il tarixindən Qəzzaya hücumları və onun Livan, Suriya, hazırkı farsmolla rejimini və Yəməni əhatə etməsindən sonra keçirilən İƏT-Ərəb Liqasının üçüncü Fövqəladə Birgə Zirvə toplantısıdır.

Qətər Əmiri Təmim bin Həməd Al Tani sammitə ev sahibliyi edib və açılış nitqi ilə çıxış edib. Al Thani, ”Kim danışıqlar apardığı tərəfi öldürmək üçün səylə və sistemli şəkildə çalışırsa, danışıqlara mane olmaq məqsədi daşıyır”, - deyə bildirib və əlavə edib ki, və ölkəsinin suverenliyini qorumaq əzmindədir. Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan İsraili ittiham edən sərt açıqlamalarla çıxış edib.

Zirvə görüşündən sonra 25 maddədən ibarət birgə bəyannamə dərc edilib. İsrailin

şiddətlə qınandığı bəyanatda, ”İsrailin Qətərin paytaxtı Dohada həyata keçirdiyi qorxaq və qeyri-qanuni hücumu ən şiddətli şəkildə qınayırıq. Bu hücumun bütün ərəb və İslam dövlətlərinə qarşı bir hücum olduğunu bir daha təsdiqləyirik.” Bəyanatda Qətərin BMT Nizamnaməsinə uyğun olaraq İsrailin hücumuna cavab vermək üçün atılan bütün addımlarda yanında olacağı vurğulanıb və İsrailin Qətəri və ya hər hansı ərəb və ya İslam ölkəsini yenidən hədəfə ala biləcəyi ilə bağlı təhdidləri birmənalı olaraq rədd edilib.

Qətərə hücumu suverenliyin açıq şəkildə pozulması və regional sülhə ciddi təhdid kimi qiymətləndirən bəyanatda Qətərə bu təcavüzlə mübarizədə yekdil dəstək mesajı paylaşılıb. Bəyanatda deyilir: ”Bir daha bildiririk ki, İsrailin regionda yeni faktiki vəziyyət tətbiq etmək planlarına qarşı çıxmaq və buna qarşı mübarizə aparmaq lazımdır”. Dünyaya çağırış edən bəyanatda ”Bütün dövlətləri İsraillə diplomatik və iqtisadi əlaqələri nəzərdən keçirməyə və ona qarşı hüquqi addım atmağa dəvət edirik” ifadəsi yer alıb.

Tramp hücumdan xəbəri olub-olmaması ilə bağlı suala ”yox” cavabını verib

Dohada keçirlən sammitdə İsrailin Qətərə hücumunda ABŞ-ın əlinin olmasından təəssüf hissi ifadə olunub. Çünki ABŞ daim Qətəri özünün yaxın müttəfiqi hesab edib. ABŞ prezidenti Donat Tramp Qətəri səfəri zamanı ona dəyəri milyon dollar olan hədiyyə bağışlanmışdır. İndi isə ABŞ İsarilə Qətərə hücumuna dəstək verir. ABŞ rəsmiləri isə məsələ ilə bağlı ziddiyyətli açıqlamalar verirlər.

ABŞ Dövlət Departamentinə istinadən verilən məlumata görə, rəsmi Vaşinqton İsrailin Qətərə hücumdan ”son anda deyil, əvvəlcədən” məlumatlandırılıb. Məlumata görə, İsrail rəsmiləri Netanyahunun ABŞ vaxtı ilə səhər saat 8:00-da Trampa zəng etdiyini, Qətərə hücumun səhər saat 8:51-də baş verdiyini və Trampın hücuma ”yox” demədiyini qeyd edib. ABŞ prezidenti Tramp hücumdan xəbəri olub-olmaması ilə bağlı suala ”yox” cavabını verib və Qətəri ”vacib tərəfdaş” kimi xarakterizə edib.

ABŞ rəsmiləri raketləri havada gördüklərini və İsraildən izahat istədiklərini, hücumdan xəbərdar olduqlarını bildiriblər. ABŞ hücumdan xəbərdar olduqdan sonra Trampın Yaxın Şərq üzrə xüsusi nümayəndəsi Stiv Vitkoffun Qətərə məlumat verməyə cəhd etdiyi, lakin çox gec olduğu iddia edilir.

Məlumdur ki, sentyabrın 9-da İsrail ordusu Dohada Həmas danışıqlar qrupunun yerləşdiyi binaya döyüş təyyarəsi ilə hücum edib.

HƏMAS-ın rəhbərliyini xilas edən hücum 6 nəfərin ölümü ilə nəticələnib: Həmas Siyasi Bürosunun üzvü Xəlil əl-Həyyanın oğlu, 4

Həmas üzvü və bir Qətər polisi öldürülüb. İsrailin baş naziri Benyamin Netanyahu 10 sentyabrda verdiyi açıqlamada Qətəri yeni hücumla hədələyərək, ”Ya onları deportasiya edin, ya da məsuliyyətə cəlb edin. Əgər etməsəniz, edəcəyik”, - deyə bidirib.

ABŞ prezidenti Donald Tramp isə bildirib ki, İsrail Qətərə növbəti hücum etməyəcək.Tramp Oval kabinetdə jurnalistlərin suallarını cavablandırarkən İsrailin Qətərə endirdiyi hava hücumundan danışıb.Qətərin ”çox yaxşı müttəfiq olduğunu və çoxlarının bunu bilmədiyini” şərh edən Tramp, İsrailin baş naziri Binyamin Netanyahunun Qətərə bir daha hücum etməyəcəyini bildirib. Prezident Tramp İsrailin HƏMAS-a qarşı başqa tədbirlərə əl atacağına eyham vuraraq, ”Netanyahu Qətəri vurmayacaq, bəlkə də onların arxasınca gedəcək”, - deyə qeyd edib.

Tramp bu cür açıqlaması ilə Qətəri, xüsusilə də Türkiyəni sakitləşdirməyə çalışır. Lakin Türkiyəni Trampın mövqeyi qane etmir. Rəsmi Ankara Netanyahuda Qətərə endirilən zərbələrə görə, üzhaqlıq gözləyir. Əks halda İsraili sonu yaxşı olmayan nəticələr gözləyir. Artıq bəzi Avropa dövlətləri Türkiyənin İsrailə qarşı hərbi əməliyyatlar keçirəcəyini qeyd edirlər. Almaniya, Fransa, eləcə də İsrail mətbuatı yaxın vaxtlarda Türkiyənin İsrailə hücum edə biləcəyindən yazır.

Türkiyə Qəzzada davam edən müharibəyə görə Təl-Əvivə qarşı ticarət embarqosu tətbiq etməklə yanaşı, İsrail təyyarələri üçün hava məkanını da bağladığını rəsmən açıqlayıb. Xarici işlər naziri Hakan Fidanın Böyük Millət Məclisində verdiyi bu bəyanat, iki ölkə arasında diplomatik gərginliyi yeni səviyyəyə daşıyıb.

Türkiyənin həm Qəzzada baş verənlərə, həm də Suriyada İsrailin artan hava zərbələrinə qarşı sərt mövqeyi, xüsusilə də İsrailin Dohaya hava zərbələri endirilməsinə rəsmi Ankaranın sərt münasibəti bir daha Yaxın Şərqdə yeni münaqişə ocağının yarana biləcəyindən xəbər verir. Analitiklərə görə, xüsusilə Suriyanın hava məkanında son zamanlar müşahidə edilən aktivlik fonunda, iki ölkənin maraqları daha tez toqquşa bilər.

Fələstini dövlət olaraq tanıyanların siyahısı genişlənir

Yaxın Şərqdə vəziyyətin gərginləşdiyi bir vaxtda İsrail yeni təhddidlərlə çıxış edir. ”The Jerusalem Post”un yazdığına görə, İsrail ordusu Qəzzaya qarşı yeni qurudan hücuma başlayıb. Nəşrin iddiasına görə, İsrail tankları artıq şəhərə daxil olmağa başlayıb. ABŞ-da yerləşən X hesabında bir yazıda müdafiə naziri Katz qeyd edib ki, İsrail ordusu işğalın ardınca Qəzza şəhərinə qarşı şiddətli hücumlara başlayıb. İsrailin müdafiə naziri Katz X hesabında ”Qəzza yanır” yazısı ilə status paylaşıb. Katz ordunun HƏMAS-ı ”məğlub etmək” və israilli məhbusların azad edilməsini təmin etmək üçün şəhərə hücum etdiyini bildirib. İslam ölkələri bir daha İsrailin Qəzzaya hücumunu pisləyən bəyanatla çıxış edib. Bəyanatda vurğulanır ki, İsrailin ”hərbi əməliyyat” kimi qələmə verdiyi hücumlar Qəzzada humanitar böhranı dərinləşdirir və beynəlxalq ictimaiyyətin artan tənqidinə səbəb olur.

Bu arada İsrailin Qəzzaya qarşı quru əməliyyatlarına başlaması dünyanın bir sıra ölkələrində hiddət və qəzəblə qarşılanıb. Almaniyanın kansleri Fridirix Mertz İsrailin hərəkətlərini məsuliyyətsiz addım adlandırıb. F.Mertz İsrailə qarşı silah embarqosu tətbiq ediləcəyini bəyan edib. Bəzi ölkələr isə Fələstini dövlət olaraq tanımaqla İsraili cəzalandırmağa çalışırlar.

Fələstin 1988-ci il noyabrın 15-də müstəqilliyini elan edəndən bəri BMT-yə üzv olan 147 ölkə Fələstini dövlət olaraq tanıyır. Yaxın vaxtlarda Fələstini dövlət olaraq tanımağa qərar verən ölkələr hüquqi prosesləri başa vurduqdan sonra bu rəqəmin 150-ni keçəcəyi gözlənilir. NATO üzvü olan 32 ölkədən 14-ü və G20-dən 10-u Fələstini tanıyır. Fələstini tanıdığını elan edən ölkələr arasında Böyük Britaniya və Fransa önə çıxır. Hər iki ölkənin Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvü olması bu qərarların xüsusi əhəmiyyətini verir.

Rusiya və Çin Fələstini 1988-ci ildə müstəqillik elan etdikdən sonra tanıyıblar. 2024-cü ilin yazında Barbados, İrlandiya, Yamayka, Norveç və İspaniya kimi ölkələr Fələstini tanıdı. İrlandiyanın baş naziri Simon Harris İsrailin baş naziri Benyamin Netanyahunu ”dünyaya qulaq asmağa və Qəzzada gördüyümüz humanitar fəlakəti dayandırmağa” çağırıb.2025-ci ilin sentyabrında Avstraliya, Belçika, Kanada və Fransa Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında (BMGK) Fələstini tanımaq planlarını açıqlayacaqlarını elan ediblər. İspaniya, Finlandiya, İslandiya, İrlandiya, Norveç və Sloveniya daha əvvəl Fələstini tanıdıqlarını elan etmişdilər. Andorra, Avstraliya, Fransa, Kanada, Lüksemburq, Malta, Yeni Zelandiya, Portuqaliya və San Marino Fələstini hələ də rəsmi olaraq tanımayan Avropa ölkələri arasındadır.

Əgər Fransa və Böyük Britaniya Fələstini dövlət olaraq tanısalar, bu, İsrailə böyük zərbə olmaqla yanaşı, BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 4-ü Fələstini tanıyacaq. Artıq Böyük Britaniya İsrailə xəbərdarlıq edib ki, Qəzzada atəşkəsə nail olunsun, əks halda Fələstini dövlət kimi tanıyacaqlar. Fransa Baş Assambleyası da yaxın günlərdə Fələstini tanıyacaqlarına dair bəyanatla çıxış edib. Bunun İsrailə qarşı qətnamələrə veto qoyan ABŞ-a təzyiq göstərəcəyi gözlənilir. Məlumdur ki, ABŞ daimi üzvlüyün verdiyi veto hüququndan istifadə etməklə Fələstinin müşahidəçi statusundan tam üzvlüyə keçməsinin qarşısını alır. Nəticədə BMT Təhlükəsizlik Şurasını bir çox qərarları icra olunmur. Əgər Fələstini dövlət olaraq tanıyan ölkələrin sayı 4-dən 3 hissəni keçərsə, o zaman Qəzzaya qurudan hücuma başlayan İsrailin bölgəni işğal etmək planlarını pozulacaq.

İLHAM ƏLİYEV

Ərzaq bazarında necə bolluq və ucuzluq yaratmaq olar?

Son illərdə ərzaq məhsullarının qiymətlərinin davamlı bahalaşması müşahidə olunur. Bunun bir neçə səbəbi var. Bəzən deyirlər ki, dünyadakı vəziyyətlə bağlıdır. Lakin bu yeganə arqument deyil. Biz görürük ki, dünyada bəzi məhsulların qiyməti ucuzlaşır, amma bizdə ucuzlaşmır. Digərləri isə deyirlər ki, yerli istehsalın azalması ilə bağlıdır. Lakin görürük ki, yerli istehsalı azalmayan məhsullarda bahalaşma var. Ümumilikdə ərzağın bahalaşması daha çox iki səbəblə- xarici və daxili amillərlə bağlıdır. Burada isə daxili amilin payı daha çoxdur. Yerli istehsalda xərclər artır. Deməli səbəblər birtipli deyil, fərqli səbəblər var və hamısının burada rolu var.

Bir-bir baxaq. Ümumiyyətlə, dünyada gedən proseslər, iqlim dəyişikliyi, quraqlıq və sair proseslər ərzaq istehsalını azaldır. Bu bütün ölkələrdə qiymətlərə təsir göstərir. Bəzi ölkələrdə bu yeganə səbəbdir. Lakin bizdə yeganə səbəb bu deyil. Bizdə bu həm də subyektiv səbəblərlə - korrupsiya amili, monopliya məsələləri, sahibkarlara, fermerlərə müxtəlif maneələr və s. ilə bağlıdır.

Azərbaycanda əhalinin ərzaq təminatı 50 faizdən artıq idxaldan asılıdır. Bəzi ərzaq məhsullarında isə bu rəqəm 70-80 faizə çatır. Yerli isatehsal ölkənin tələbatının yarısını belə ödəmir. Halbuki, Azərbaycanda kənd təsərrüfatı ilə əhainin 40 faizə qədəri məşğul olur. Hökümətin qarşısında məqsəd qoyulmuşdu ki, ərzaq təhlükəsizliyini təmin edək, amma edə bilmirik, əksinə hər il aqrar sektorda tənəzzül görürük. Statistikalar da bunu göstərir. İldən-ilə idxal artır, istehsal azalır.

Bu, heyvandarlıq, bitkiçilik və digər sahələrə də aiddir. Nəticədə də, idxaldan asılılığımız bahalaşmaya səbəb olur.

İkinci səbəb, sahibkarlara, fermerlərə, əkinçilərə yaradılan maneələrdir. Məsələn, suvarma işi yaxşı təşkil olunmayıb deyə su ilə bağlı problemlər var. Heyvandarlar üçün örüş yerləri problemi var, yemin qiyməti də bahalaşır.

Bundan əlavə, kəndlilərin öz məhsullarını rahat şəkildə bazara çıxarması təmin olunmadığına görə, sahələrdə 20-30 qəpiyə alınan məhsul paytaxtada, iri şəhərlərdə 1-2 manata satılır. Yəni, məhsulu əkib-becərən yox, dəllallar, bazarları zəbt etmiş alverçilər qazanır. Bu halda istehsalçı da, istehlakçı da uduzur, ortada qazanan dəllallardır. Kəndli məhsulunu yerində 20 qəpiyə satır, mən burda 1 manata alıramsa, ortadakı 80 qəpiyi dəllallar qazanır.

Bundan başqa, istehsalçılara qarşı çoxsaylı maneələr, əngəllər, bürokratik yanaşma amilləri var. Bu səbəbdən də, aqrar sektora milyardlarla pul ayrılsa da, bu sahədə ciddi irəliləyiş yoxdur. Halbuki, öz potensialına görə, Azərbaycanda neftdən sonra ən gəlirli sahə aqrar sektordur. Aqrar sahə həm də yüngül və yeyinti sənayesi deməkdir. Təəssüf ki, biz bunu da qura bilməmişik. Xammal ixracatçısına çevrilmişik. Məsələn, məhsulu emal edə bilmirik, xammal kimi ucuz qiymətə xaricə satırıq, oradan da dayanmadan hazır məhsullar idxal edirik. Nəticədə, özümüzdə 5 manata başa gələsi məhsulu xarici ölkədən 15-20 manata alırıq. Burda milyardlarla pul itiririk. Bu, digər sahələrə də aiddir.

Məhsulun maya dəyərinin artmasına da bir neçə amil təsir edir. Son illərdə suyun, bitkiçilik və heyvandarlıq üçün dərmanların, yanacağın qiyməti artır. Təbii ki, bu da bütün istehsalçılara zərbə vurur. Həm də məhsulların maya dəyərini artırır.

Əlavə olaraq, bazarda tələb-təklif məsələsi də var. Tələb təmin olunmursa, qiymətlər bahalaşır. Ona görə də yeganə şərt məhsul bolluğunun təmin olunmasıdır . Məhsul bolluğununu da idxalla təmin etmək doğru deyil. Birincisi, ölkə bazarına mənşəyi məlum olmayan keyfiyyətsiz məhsullar gəlir. İkincisi, ölkədən küll miqdarda valyuta çıxır. Üçüncüsü, bizim yerli istehsalçı sıradan çıxır, bazarlar xarici məhsulla dolur. Bunların hamısı ölkə iqtisadiyyatına zərər vurur, insanları işsiz, torpaqlarımızı istifadəsiz qoyur.

Ölkəmizdə aqrar siğorta sistemi də işləmədiyinə görə fermerlər bir çox hallarda zərərə düşür. İnsanlar əziyyət çəkib, hektarlarla yerdə əkin-biçin edir. Son nəticədə, əldə etdiyi gəlir xərcləri ödəmir. Və gələn il əkmək istəmirlər. Artıq bu sahə sıradan çıxır. Nəticədə həmin məhsullar xaricdən gətirilir. Halbuki, bizim ele potensialımız var ki, Azərbaycan öz əhalisini tam şəkildə bütün ərzaq məhsulları ilə təmin edə bilər. Əlavə olaraq da böyük ixrac imkanlarımız var. Sadəcə, Kənd Təssərrufatı Nazirliyi aqrar sahədə düzgün stimullaşdırma aparmır, düzgün proqramlar yerinə yetirmir. Baxmayaraq ki, milyardlarla dövlət vəsaiti ayrılır, bu pullar batır. Deməli, idarəetmədə problem var.

Ölkədə bolluq və ucuzluq yaratmağın çox sadə üsulu var. Bunun üçün bütün ölkə boyu daimi yarmarkalar təşkil olunmalıdır. Bakı şəhərində 10, Gəncə, Sumqayıt şəhərlərində 2 yerdə, digər şəhərlərdə 1 yerdə ilin 365 gün daimi yarmarkalar olmalıdır. Bu yarmarkalara ancaq öz məhsulunu istehsal edən kəndlilər, sahibkarlar, fermerlər buraxılmalıdır. Bu halda onlar öz məhsulunu sahədə 20 qəpiyə deyil, orada 60 qəpiyə satacaq, 3 qat gəlir əldə edəcək. Biz də alıcı olaraq 1,2 manata yox, 60 qəpiyə almış olacağıq. Deməli, biz burda 2 dəfə də irəli düşürük, dəllallar isə ortadan çıxır. Nəticədə, öz məhsulundan yaxşı gəlir əldə edən sahibkarlar, fermerlər, əkinçilər gələn il daha çox məhsul istehsal etməyə çalışacaq, öz imkanlarını genişləndirəcək. Texnika alacaq, daha çox işçilər tutacaq, çalışacaq ki, çox məhsul istehsal etsin.

Aqrar sektorda məhsul azalması sənayeyə də zərər vurur. Çünki yeyinti sənayesi, yüngül sənaye artıq təmin olunmur. Biz niyə duru yağları Rusiyadan, Ukraynadan almalıyıq?! Özümüzdə qarğıdalı, zeytun, günəbaxan bitmir? Biz niyə konservləşdirilmiş məhsulları, məsələn adicə tomatı xarici ölkədən idxal etməliyik? Pomidorumuz yoxdur? Eləcə də davamlı olaraq ətin qiyməti qalxır. Niyə? Çünki heyvandarlıqda da maya dəyəri artıb, örüşlər azalıb. Bu kimi məsələlər ətin qiymətinin bahalaşmasına gətirib çıxarır. Nəticədə əhalinin sosial vəziyyəti ağırlaşır və ərzağın bahalaşması dayanmır.

Bahalaşmanın qarşısını almaq üçün ciddi dövlət qroqramı qəbul olunmalıdır. Ölkə əhalisinin yarısı Bakı və Abşeron zonasına yerləşib. Çünki regionlarımızda iş imkanları azdır. Dövlət elə siyasət yürütməlidir ki, şəhərlərə axışmış əhali geri qayıtsın, orada iş yerləri ilə təmin olunsun, təssərrüfatlar yaratsın, heyvandarlıqla məşğul olsun, əkin-biçin etsinlər. Regionlarda kiçik istehsal sexləri təşkil olunmalıdır.

Bundan əlavə, insanlara güzəştli şərtlərlə kredit verilməlidir ki, gedib özünə iş yaratsın. Nəticədə, əhali bir yerə doluşmaz, Bakının da yükü azalar. Regionlarda da iqtisadi aktivlik olar. Məşğulluq məsələsi aradan qalxar. Xaricə çıxan valyutamız azalar. Dövlətin sosial yükü də azalar. Bu halda ünvanlı sosial yardım verməyə də ehtiyac qalmayacaq, insanlar özləri qazanacaq.

Elçin Bayramlı

“Mina və iqlim təhlükəsi proqramın icrasını ləngidə bilər”

“Böyük Qayıdış proqramı Azərbaycanın 2020-ci il Qarabağ müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərin yenidən qurulması və məcburi köçkünlərin qaytarılmasına yönəlmiş strateji təşəbbüsdür. Bu proqram 2022-ci ildə başlamış və 2026-cı ilə qədər təxminən 140 min nəfərin qaytarılmasını hədəfləyir”. Bunu SİA-ya açıqlamasında politoloq Mütəllim Rəhimli deyib.Onun sözlərinə görə, proqram həmçinin infrastrukturun bərpasını, smart kəndlərin qurulmasını və iqtisadi inkişafı özündə əks etdirir: ”Beynəlxalq tərəfdaşlıq və xarici siyasi dəstək proqramın reallaşdırılmasında mühüm rol oynaya bilər, lakin həm imkanlar, həm də risklər mövcuddur.Beynəlxalq İnkişaf Bankı, Dünya Bankı, BMT və Avropa İttifaqı kimi təşkilatlar infrastruktur layihələrinə, o cümlədən yol, su və enerji sistemlərinin bərpasına investisiya qoya bilərlər. Beynəlxalq İnkişaf Bankının 2025-2029 strategiyasında Azərbaycanın sosial-iqtisadi inkişafı üçün iqlimə uyğun infrastrukturun dəstəklənməsi nəzərdə tutulub ki, bu da azad edilmiş ərazilərdə yenidənqurma ilə uyğunlaşır. Həmçinin Beynəlxalq Miqrasiya Təşkilatı və UNICEF kimi qurumlar mina təmizləmə və təhlükəsizlik tədbirlərində iştirak edə bilərlər. Beynəlxalq tərəfdaşlar smart kəndlərin qurulması, təhsil və səhiyyə sistemlərinin inkişafı üçün ekspertiza təqdim edə bilərlər.Beynəlxalq dəstək Ermənistanla dialoqu gücləndirərək Qafqazda uzunmüddətli sülhə töhfə verə bilər.

Bu, həmçinin Azərbaycanın beynəlxalq imicini yaxşılaşdırır və turizm kimi sektorların inkişafına şərait yaradır.Bununla yanaşı, xarici müdaxilə müəyyən risklər də yarada bilər. Beynəlxalq dəstək şəffaflıq və inklüzivlik tələblərinin pozulması ilə Azərbaycanın suverenliyinə təsir edə bilər. Mina təhlükəsi (2020-ci ildən bəri 65 ölüm və 289 yaralanma qeydə alınmışdır) və iqlim dəyişikliyi (sel, quraqlıq) proqramın icrasını ləngidə bilər. Əgər beynəlxalq dəstək kifayət qədər təmin olunmasa, bu risklər daha da artar. Yavaş qayıdış tempi (2024-cü ilə qədər yalnız iki min ailə) və məcburi köçkünlərin şəhər həyatına uyğunlaşması xarici dəstəyin effektivliyini azalda bilər. Sonda onu qeyd etmək olar ki, beynəlxalq tərəfdaşlıq Böyük Qayıdış proqramını sürətləndirə və gücləndirə bilər. Lakin riskləri idarə etmək üçün şəffaflıq və yerli prioritetlərə fokuslanmaq vacibdir”.

Günel Fərzəliyeva

FELYETON



Qarpızdodaq, şanakirpik, ceyrangöz...

Molla Nəsrəddin:

-Ay bala, bu nədir, bu qadınların hamısı niyə bir-birinə oxşayır? Bunların dodağı-başı niyə bu gündədir? Adam qorxur...

-Ay Molla əmi, dəbdir də. Elə ki, burunların kiçildilməsi, dodaqların şişirdilməsi dəb halını aldı, eyni həkimə və kosmetoloqa müraciət edən qadınlar da bir-birinə bənzəməyə başladılar. Çünki bir həkimin, bir kosmetoloqun bacardığı iş onlarla qadının üzündə təzahür edir.

- Bismillahir-rəhmanir-rəhim. Nə danışırsan, burunların kiçildilməsi, dodaqların şişirdilməsi nə deməkdir, bu nəyə lazımdır?

- Belədir də, ay Molla əmi, biri görür burnu böyükdür, çirkin görünür, gedir həkimə, kiçiltmək istəyir. Həkim də pulunu alır, burnunu balaçalaşdırır, vəssalam. Bu, illərdir, belədir.

-Allah, nələr eşidib görəcəkmişik. Dodaqlarını niyə şişirdir bu qadınlar? Bu da vacibdir burun kimi? Bu, nəyi dəyişir, nəyə xidmət edir?

-Bu, heç nəyi dəyişmir. Sadəcə qadınlar var ki, dodaqlarının böyük görünməsini istəyirlər. Onlara elə gəlir ki, dodaqları böyük olanda cazibədar görünürlər. Bax, vallah, mən də sizin kimi bu suallara illərdir ki, cavab axtarıram, lakin hələ də tapa bilmirəm. Küçədə, mağazada, marketdə bir də baxırsan ki, neçə qadın varsa, hamısı bir-birinin bənzəridir. Dodaqlar, necə deyərlər, üç metr qabaqda, burunlar yuxarıda- ox kimi.

-Mən də gördüm. İlahi, insan da özünü bu günə salarmı? Bu boyda dodaqların nə mənası var? Axı Allahtəala məsləhət bilib bunu qaydasında-qanununda verib də...

-Yox, Molla əmi, bunu anlayan, düşünən varmı? Elə bu səbəbdən də şişmə dodaqlar dəbə düşüb və əksər qadın düşünmədən-daşınmadan qaçır kosmetoloq yanına ki, mənim dodağımı şişirt. Bu iş üçün həm də qadınlarımız heç də həmişə həkim-kosmetoloqlara deyil, adi bir gözəllik salonunda bu işlə məşğul olanlara müraciət edirlər ki, nəticə adamı dəhşətə gətirir. Bir də baxırsan ki, qarşıdan bir qadın gəlir, ağız-dodağını heç cür yığıb-yığışdıra bilmir. Vallah, adamın yazığı gəlir. Bəzi halda utandıqları, insanlardan qüsurlarını gizlətməyə çalışdıqları da gözdən yayınmır. Amma, çox təəssüf ki, iş işdən keçmişdir.

-Mən həqiqətən deməyə artıq söz tapa bilmirəm. Elə bilirdim dövrümüzdə camaat avam idi. Lakin indi görürəm ki, elə onları necə qoyub getmişiksə, eləcə də qalıblar. Dəyişən bir şey olmayıb. Onda bir başqa, indi bir başqa...

- Molla əmi, gördüyünüz bu oxşarlıq tək burun, dodaq deyil ha?

-Dahası da var niyə?

-Bəli, var. Həm də necə. İndi artıq qalıcı olaraq qaşların formaya salınması və kirpiklərin uzadılması, saçların istənilən uzunluğa çatdırılması da qadınlarımız arasında dəbə çevrilib. Bax elə bütün bunlara görə də tez-tez bir-birinə oxşar qadınlarla qarşılaşmaq olur. Burunlar, dodaqlar, qaşlar, kirpiklər, saçları... eyni olan qadınlarla. Hələ başqa əməliyyatlar da var, ancaq gərək məni bağışlayasınız, sizinlə bu barədə danışa bilmərəm.

-Niyə?

-Çünki yer ayrılar, içinə girərəm.

-Ay bala, adamın ağlı-huşu olar. Bir qadın üçün özünəməxsusluqdan gözəl nə ola bilər? Özünə məxsus burun, dodaq quruluşu, özünə məxsus saçlar, qaşlar, kirpiklər... Qadınlarımız əsrlərlə bütün bunlarla bir-birindən fərqli olmayıbmı? Bir-birindən bu gözəllikləri ilə seçilməyibmi?

-Əlbəttə, Molla əmi. Amma təəssüflər olsun ki, biz müasirləşdikcə, özümüzdən uzaqlaşırıq. Allahın verdiyi qaşları ləğv edib yerinə şahə qalxan qaş döydürürük? Püstə ağzımızı qarpıza çeviririk. Qıvrılıb yuxarı qalxan, gözlərimizə işığın düşməsini əngəlləyən kirpiklərlə gəzməli oluruq. Hələ ceyrangöz xanımları deyim ey sizə. Gedib həkimə bir ətək pul verib gözlərini dartdırırlar yana-yuxarı. Deyirlər ki, olduq ceyrangöz. Həqiqətən də ceyrangöz olurlar ha, Molla əmi. Baxırsan ki, gözlər o qədər dartılıb ki, artıq yumulmur, kirpik kirpiyin üstünə gəlmir.

-Maşallah, bərəkallah. Mən də deyirəm, o qədər yazdıq, dedik, indi çoxdan səsimizi eşidib müsəlmanlar, avamlığın daşını atıblar. Gəlib buralara baş çəkməyimə peşman oldum. O dövrdə dərd bir-iki idi. İndi sizin dərd-sərinizin sayı-hesabı yoxdur ki. Rəhmətliklər sağ olsaydı da, bu qədər cızığından çıxan insanlarla baş edə bilməzdilər. Heyf bu millətdən...

Mətanət Məmmədova

Musiqi ruhun qidasıdır, yoxsa bədənin?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "elmi-kütləvi, mədəni-maarif, təhsil proqramlarının hazırlanması "istiqaməti çərçivəsində hazırlanıb

Musiqinin vətəni yoxdur deyirlər, çünki o dil, din, irq, millət, cinsiyyət fərqi qoymadan hər yaşdan və mədəniyyətdən olan insana təsir edən vasitədir. Musiqi zövqümüz isə fərqlidir, kimimiz klassik, kimimiz müasir müsiqi janrlarına üstünlük veririk. Son illər musiqi terapiyası barədə olduqca geniş məlumatlar var- muğamla, klassik musiqi ilə insanların müalicə edilməsi faktları çoxdur. Qədim dövrlərdən bəri xəstəliklərin müalicəsində də istifadə edilən musiqi, tibbin bir çox sahəsində olduğu kimi, xüsusilə insan psixologiyası üzərində böyük təsirə malikdir.

Musiqi ilə müalicə, digər metodların uğursuz olduğu zaman müsbət nəticələr verə bilir. Xüsusilə də yaddaş pozğunluqlarının bərpa edilməsində musiqi terapeyası əvəzsizdir. Özünə qapanmış, aqressiv və cəmiyyətdən qaçan birini psixoloqlar musiqi dinləməklə müalicə edir və cəmiyyətə yenidən normal baxış və davranışlarını ona qaytarırlar. Musiqinin köməyi ilə yuxusuzluqdan əziyyət çəkənlər və çox hərəkətli uşaqları yatırmaq üçün də istifadə edilir. Musiqi əməliyyata hazırlaşan və vəziyyəti ağır olan xəstələrə cəsarət verir. Əməliyyat zamanı ağrılar sakitləşdirici və ruhu oxşayan musiqilərlə azaldılır. Bəzi cərrahlar da əməliyyata klassik musiqilərin müşaiyəti ilə girirlər. Daha canlı və ritmik musiqilər isə orqanizmin özünü yaxşılaşdırması prosesində köməkçi olur.

Yorğunluqdan şikayətlənənlərə də sürətli templi musiqilər təklif edilir. Normal ürək döyüntüsü sürəti ilə başlayan və yavaş yavaş sürətini artıran musiqilər dinləyicidə həyəcan yaradır. Bu, özünü ən açıq şəkildə ənənəvi döyüş barabanları və hərbi orkestrlərdə göstərir. Yüksək ritmli və sürətli musiqilər, insana enerji verir və ürək döyüntüsünün sürətinin artmasına səbəb olur, tənəffüs sürətini dəyişdirir və qan təzyiqini artırır. İnsanları rahatlaşdırmaq üçün həzin səslər və həzin musiqilər istifadə edilir.

Qədim mənbələrdə hələ uzaq keçmişdə musiqidən müalicə vasitəsi kimi istifadə edilməsinə dair məlumatlar var. Musiqi və təbabət əsrlər boyu bir-birindən ayrılmaz olub və musiqi həmişə insan üçün estetik və mənəvi zövq mənbəyi rolu oynayıb. Strabonun fikrincə, musiqi ilə ən vəhşi heyvanları belə ram etmək mümkündür. Məhşur fransız həkimi Jan Reje musiqi vasitəsilə canavarların qızğınlığının necə yatırıldığını, tütək sədaları ilə ovçuların ceyranları necə tora çəkdiklərini, pətəklərindən qaçmış arıların simbal çalmaqla necə cəmləşdirildiyini, qu quşlarının gitara sədaları ilə necə ovsunlanıb ram edildiyini təsvir edib.

Məşhur bəstəkar və pianoçu Raxmaninov deyərmiş ki, pianoda ifa etmək onun ağrılarını kəsir. Tanınmış skripkaçı B.Sibor quduzluq xəstəliyindən əziyyət çəkən qızının ağrılarını skripka çalmaqla yüngülləşdirirmiş. Hippokrat və Pifaqor öz xəsətələrini musiqi ilə müalicə edib və müsbət nəticələr əldə ediblər. XX əsrin ortalarında görkəmli alim, professor İbrahim Topçubaşov Azərbaycanda "musterapiya" adlı tibbi müalicə sisteminin əsasını qoymuşdu. Ağır xəstələr musiqinin müşayiəti ilə əməliyyat edilirdi və yaxşı nəticələr əldə olunurdu.

Müasir dövrdə də musiqidən psixoterapiyanın ən səmərəli üsullarından biri kimi istifadə edilir. Bir sıra xəstəxana və sanatoriyalarda əsəb sisteminin bəzi pozuntularının nizama salınmasında musiqidən əsas müalicə vasitəsi kimi istifadə edilir. Bir qayda olaraq bu işdə klassik musiqiyə üstünlük verilir.

Bəyəndiyimiz musiqilər zövqümüzü oxşayır, ruhumuzu dincəldir. Orta və yaşlı nəsil adətən klassik musiqiyə meyl edir. Yeniyetmə və gənclər isə daha çox rep, pop musiqilərini xoşlayır.

Musiqi insanları və cəmiyyətləri bir-birinə yaxınlaşdıran bir vasitədir, musiqi təhsili isə davranış və dünyaya fərqli baxış baxımından çox əhəmiyyətlidir. Gözəl ifa olunan, ən sadə və ya ən qəliz alətlərlə ifa edilən musiqi də, gözəl səsi ilə mahnı oxuyan insanlar da həmişə diqqət mərkəzində olublar. Musiqi ilə məşğul olan bir qrupu gözünüzün önünə gətirin. İstər klassik musiqi ifaçıları, istərsə də müasir musiqilərin ifaçıları. Fikir vermisiniszə, qrupun bütün üzvləri bir-birinə bənzəyir. Çünki onların hamısı eyni musiqidən zövq alır, zövqləri oxşar olduğu üçün həm daxilən, həm də xaricən oxşarlıq yaranır. Təcrübələr göstərib ki, onların ürək döyüntülərinin ritmi belə eyni olur.

Müəyyən alətlərin insanı sakitləşdirmə və yaxud da həyəcanlandırma təsirləri var. Ən çox enerji verən musiqi alətlərindən olan baraban və nağara insanda istər-istəməz yüksək əhval-ruhiyyə yaradır. Hərbi marşların həm ruh yüksəkliyi yaratmaq, həm də sakitləşdirici hal aşılamaq kimi bir gücü var. İngilis dramaturqu Uilyam Konqrin yazır ki, musiqidə magiya qüvvəsi var. O, vəhşini ram edə, daşı yumşalda, qol-budaqlı palıd ağacını əyə bilir. Araşdırmalara görə musiqi ilə maraqlanan şagirdlər dərslərində daha müvəffəqiyyətlidir, dərs qavraması daha asanlaşır. Hiperaktiv uşaqların sakitləşdirilməsində və tərbiyəsində musiqinin təsiri barədə son illər dünyada geniş araşdırmalar aparılır.

Dünya təcrübəsinə görə Motsartın musiqiləri uşaqlar üçün əvəzsiz müalicədir. Xüsusilə, yeni doğulmuş körpələrə və azyaşlı uşaqlara musiqinin verdiyi rahatlıq barədə dünyada çox danışılır. Eləcə də, dərslərində ləngimə və problem olan uşaqlar üçün adaptasiya olmaq üçün Motsartın musiqiləri əvəzsizdir.

Səs, xüsusi riyazi tənzimləməyə sahibdir. Xoş melodiyalar dinləyən insanın beyindəki alfa dalğaları hərəkətə gəlir, bunun nəticəsində o sakitləşir, bədən və ruh dincəlir, qavrama funksiyası daha güclü işləyir. Xüsusilə, klassik musiqi və xalq mahnıları ruhumuz qədər beynimiz üzərində də rahatladıcı, sakitləşdirici təsirə malikdir. Ana bətnindəki körpəyə klassik musiqi dinlədilikdə körpə sakitləşir, inkişafı sürətlənir.

Kompyuterlər vasitəsi ilə monitorlara qoşulan ana və bətnindəki körpəsi üzərində belə bir təcrübə Britaniyada aparılıb. Klassik musiqi dinlədilən 8 aylıq körpə anasının bətnində rahat bir formada dayanaraq musiqini dinləyir, əl və ayaq hərəkətlərindən onun nə qədər razı olduğu hiss edilib. Ancaq körpəyə rok və ya müasir musiqi növlərindən hər hansı dinlədiləndə, ana bətnində narahat olur və anasının qarınını daha çox təpikləməyə başlayır.

"Harvard" və "Oxford" Universitetlərin birlikdə apardığı bir araşdırma nəticəsində məlum oldu ki, musiqi ilə maraqlanan və musiqi bacarığı olan şagirdlər həyatlarında daha çox uğur qazanırlar. "McGill" Universitetində aparılan başqa bir araşdırmaya görə isə, piano təhsili insanlarda özünə güvən hissini inkişaf etdirir. Üç il boyunca piano təhsili alan uşaqların heç piano dərsi almayanlara nisbətən özünə inamlarının yüksək olduğu bu araşdırma nəticəsində məlum olub.

1993-cü ildə Kaliforniyada 12-13 yaşlı uşaqlar üzərində bir araşdırma aparılıb. Bu uşaqlara piano dərsləri verilib, səs elmi öyrədilib. Nəticə gözlənilməndən də maraqlı olub. Nəticədə uşaqların bilik və bacarığının 46 % artması müşahidə edilib. Bir neçə il əvvəl Yaponiyada maraqlı eksperiment keçirilib. 120 südəmər uşağın anasını 2 dəstəyə bölüblər. 1-ci qrupa Qərb klassik musiqisini, 2-ciyə isə caz, rok və pop musiqisini dinlədilib. Müəyyən edilib ki, klassik musiqini dinləyən anaların südü 80-100 faiz artıb. Caz, rok və pop musiqi dinləyən anaların südü isə 20-50 faiz azalıb.

Klassik musiqilər dinclik və rahatlıq verən xüsusiyyətə malikdir və ürək döyüntüsünü və maddələr mübadiləsini nizamlayır. Bu musiqilər beyinə gedən qan və oksigen miqdarını artırır. İnsana ilham verir, duyğuları dirçəldir, yaradıcılıq gücünü artırır, yaddaşı inkişaf etdirir. Klassik müsiqi şagirdlərin daha tez və effektiv öyrənmələrinə kömək edir. Yaddaşı gücləndirir, yaddaşda yığılan məlumatı xatırlamağı sürətləndirir. Musiqi alətində ifa edən uşaqların həyatı nizama düşür, intizamlı olurlar. Oxuma, yazma və öyrənmə problemi olan şagirdlər musiqi ilə öyrədilə bilərlər. Musiqi analitik düşünmə bacarığını gücləndirir, klassik musiqilər hiperaktiv uşaqları və yetniyetmələri sakitləşdirir, diqqətsizliyi azaldır və daha az səhv edilməsini təmin edir. Xəstəliyi dövründə klassik musiqi dinləyənlərin müalicə müddətini sürətləndirir.

Dünya təcrübəsindən kifayət qədər müsal çəkdik, bəs bizim ölkəmizdə musiqinin faydaları barədə elmi araşdırmalar edilirmi? Azərbaycanda alimlər, tibb elminin nümayəndələri bu barədə nə bilir? Ölkəmizin tibb tarixçilərindən biri, mərhum tarix elmləri doktoru Fərid Ələkbərlinin "Şərqin min bir sirri" kitabında Azərbaycanın qədim çalğı alətlərinin və musiqi janrlarının xəstəliklərin müalicəsində təsirləri əks olunub.

Müəllifin yazdığına görə, sazda ifa edilən musiqi sinir sistemini fəallaşdırır, insanı gümrah edir, əhval-ruhiyyəni yüksəldir, mübariz ruh yaradır. Zurnanın səsi ruh düşkünlüyünü, laqeydliyi aradan qaldırır, qan təzyiqini artırır. Nağara insanlardan qəm-qüssəni uzaqlaşdırır, əqli və fiziki yorğunluq, qan təzyiqinə qarşı mübarizə etməyə kömək edir. Tarda çalınan musiqi baş ağrısı, yuxusuzluq, əsəb və əzələ spazmalarını aradan qaldırır, kamança isə əsəbləri sakitləşdirir, hal-əhvalı yaxşılaşdırır, qəm-qüssəyə qarşı nikbinlik yaradır. Ney, balaban, tütəyin səsi əsəbləri sakitləşdirir, gərginliyi və yorğunluğu alır. Udun səsi baş ağrısına qarşı ən yaxşı dərmandır, əzələ spazmalarını aradan qaldırır, güclü sakitləşdiricidir.

Tar və kamançanın müşaiyəti ilə ifa olunan muğamın ecazkar səsi sinir sistemini sakitləşdirir, gərginliyi azaldır, yuxusuzluğu yox edir. Muğam nevroz xəstəliyi zamanı ən yaxşı sakitləşdiricidir. Oyun havaları insanı aktivləşdirir və gümrahlaşdırır, həyat tonusunu qaldırır. Alim kitabında pis əhval-ruhiyyədə, əsəbilik, nevroz hallarında və aşağı qan təzyiqindən əziyyət çəkəndə şən oyun havalarını dinləməyi məsləhət görürdü. Klassik musiqi əsərləri sakit əhval-ruhiyyə və incə hissləri oyadır, şəxsin mənəvi inkişafına təkan verir. Belə musiqi nevroza, qüssəyə, yuxusuzluğa qarşı əla vasitələrdən biridir.

Ritmik estrada (pop) musiqisi demək olar ki, qəhvə kimi təsir edir, yəni orqanizmə tonus verir, ürək döyüntüsünü və pisixi fəaliyyəti aktivləşdirir, əhval-ruhiyyəni yaxşılaşdırır. Alimin yazdığına görə bu musiqi cavanlara yaxşı təsir bağışlamaqla, problemlərini müvəqqəti unutmağa, güclü emosiyalara qapılmağa və istirahət etməyə kömək edir. Eyni zamanda, qəhvədə olduğu kimi pop musiqisində də zərərli təsirlər özünü göstərir. Bu musiqi növünü uzun müddət dinlədikdə o, yorğunluq və əsəbilik əmələ gətirir, ürəyə və sinir sisteminə zərər verir.

Lakin qızğın ritmlər insanın əsəb sisteminə, eşitmə sisteminə çox pis təsir edir və onu kar olmaq dərəcəsinə gətirib çıxarır. Rok musiqisi kimi janrlar isə, insanda narkotikə meyil və heyvani hisslər yaradır.

Lalə Mehralı

SON SƏHİFƏ
SƏS
18 sentyabr
2025-ci il

Məktəblərdə telefon QADAĞASI: nələr DƏYİŞƏCƏK?

Təhsil eksperti mühüm məqamlara aydınlıq gətirdi

Məktəblərdə mobil telefonların istifadəsinə yenidən məhdudiyyətlər tətbiq olunacaq. Artıq ağıllı telefonlar dərs zamanı tamamilə qadağan ediləcək, yalnız zəng funksiyası olan adi telefonlardan istifadə mümkün olacaq. Məqsəd şagirdlərin diqqətini dərsə yönəltmək və məlumatı biliyə çevirməyə kömək etməkdir. Maraqlıdır ki, bu qadağa bütün yaş qruplarını əhatə edəcək? Bəs, bu qərar uşaqların təhsilinə necə təsir edəcək?

Məsələ ilə bağlı təhsil ekspeti Məzahir Məmmədli SİA-ya açıqlamasında bildirib ki, bu qərarın əsas səbəbi kimi bəzi yuxarı sinif şagirdlərinin müəllimləri icazəsiz çəkib sosial şəbəkələrdə yayması, yaxud digər şagirdlərə qarşı təzyiq və şantaj məqsədilə video və foto çəkilişlər etməsi göstərilir:

"Həqiqətən də bu cür halların artması cəmiyyətdə narahatlıq doğurur və təhsil mühitinə mənfi təsir göstərir. Lakin bu qadağa nə dərəcədə effektiv və ədalətlidir? Düşünürəm ki, bu qərar, əsasən, bəzi neqativ hallar səbəbilə verilib və ümumi yanaşma kimi hər bir şagirdə şamil olunması birmənalı qarşılanmamalıdır. Çünki texnologiyanın, xüsusilə də smartfonların həyatın ayrılmaz hissəsinə çevrildiyi bir dövrdə uşaqların ondan tamamilə məhrum edilməsi hər zaman müsbət nəticə verməyə bilər. Əslində, problem telefonda deyil, onun necə və nə məqsədlə istifadə olunmasındadır. Əgər telefon düzgün istiqamətdə istifadə olunursa - dərslə bağlı məlumat axtarışında, tədris tətbiqlərində və ya təcili ailəvi əlaqə üçün - bu zaman onun məktəbə gətirilməsində ciddi bir qəbahət yoxdur. Əksinə, bu, uşağın məsuliyyət hissini formalaşdırmaq və texnologiyanı idarə etmə bacarığını inkişaf etdirmək üçün bir fürsət ola bilər. Məktəblərdə bu məsələ ilə bağlı alternativ yollar da düşünülə bilər. Məsələn, hər bir sinif otağında telefonların saxlanılması üçün xüsusi yerlər ayrıla bilər. Dərs zamanı telefonlar orada saxlanar, tənəffüsdə və ya dərs bitdikdən sonra şagirdlər onlara nəzarətli şəkildə çata bilər. Beləliklə, həm texnoloji vasitələrə tam qadağa qoyulmaz, həm də dərs prosesinə mane olan halların qarşısı alınar. Düşünürəm ki, məktədə şagirdlərij telefona istifadə qadağasının tətbiqi çox çətin olacaq".

Arzu Qurbanlı

ELAN

Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının növbədənkənar ümumi yığıncağı 20.10.2025-ci il tarixində saat 11:00-da Bankın Bakı şəhəri, Xətai rayonu, Yusif Səfərov, 27 ünvanında yerləşən Baş ofisində keçiriləcəkdir. Səhmdarlar yığıncağın gündəliyi: Bank "BTB" Açıq Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibi haqqında

Qış və yay geyimlərində ən çox buraxılan səhvlər hansılardır?

"Qalın geyim əvəzinə bir neçə nazik qat geyinmək, bədəni daha effektiv izolyasiya edir. Qatlama üsulu yalnız istiliyi saxlamaqla kifayətlənmir, həm də bədənin nəfəs almasını təmin edir". Bunu SİA-ya açıqlamasında rəssam modelyer Səkinə Əliyeva deyib.

Onun sözlərinə görə, təkcə qalın sviter geyinmək isə nəfəs almağı çətinləşdirir və hərəkət azlığına səbəb ola bilər: "Sintetik materiallara üstünlük vermək bəzən faydalı olsa da, yalnız polyester və ya akril geyimlər bədəni isitsə də, tər saxlayır və üşütməyə gətirib çıxara bilər. Bu səbəbdən geyim seçərkən təbii materiallarla, məsələn, yun və pambıqla qarışıq parçalar seçmək daha məqsədəuyğundur. Belə geyimlər həm istiliyi saxlayır, həm də rahat nəfəs almağa imkan verir.

Qışda çox insan yalnız qara, boz və tünd rəngləri seçir. Bu, görünüşdə monotonluq və darıxdırıcı təəssürat yarada bilər. Əslində açıq tonlar və rəngli aksesuarlar, məsələn, şərf, papaq və əlcəklər, geyimi canlandırır və üsluba zövq qatır. İnce detalları rəngli etmək, həmçinin geyimdə harmoniya yaratmaqla bədənin vizual olaraq daha cəlbedici görünməsinə imkan verir. Bu prinsiplərə əməl etməklə qışda həm isti qalmaq, həm də rahat və zövqlü geyinmək mümkündür. Həmçinin, geyim seçimində komfort və estetik görünüşü balanslaşdırmaq, uzun müddətli üşümənin qarşısını almaq üçün önəmlidir".

Günel Fərzəliyeva

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!

«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

"Qarabağ" "Benfika"nı diz çökdürdü!

UEFA Çempionlar Liqasında əsas mərhələyə start verilib. Azərbaycan təmsilçisi "Qarabağ" da Liqa mərhələsinin ilk oyununa çıxıb. Qurban Qurbanovun komandası 2024/25 mövsümü Portuqaliya liqasını 2-ci yerdə tamamlayan "Benfika"nın qonağı olub. Lissabondakı "Estadio da Luz"da keçirilən görüş "Qarabağ"ın 3:2 hesablı qələbəsi ilə yekunlaşıb. Ağdam klubu əvvəlcə 0:2 hesabı ilə geridə olsa da, rəqib qapısına 3 qol vuraraq qalib gəlməyi bacarıb. Bununla da Ağdam təmsilçisi Azərbaycanın futbol tarixində daha bir möhtəşəm səhifə yazdı. Uğurlar "Qarabağ"!

Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyli
küçəsi, 66.**

Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az

"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR

Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3000